FilmFiction

Krzysztof Kieślowski s.4

Filmdə şərab s.17

Paolo Pazolini: son müsahibə s.14

No. 14

İÇİNDƏKİLƏR

email: film.fiction@box.az
facebook.com/fiction.magazine

REDAKTOR
Şahin Xəlil
DİZAYN
Fuad Alqayev
Bəhruz Qaraməmmədov
YAZARLAR
Kənan İsaxanlı
Nuranə Axundzadə
Ayse Eleanor
Məlahət Qurbanəliyeva
Elmidar Süleymansoy
Leyla Nənə
Nurlan Həsənli
Şahanə Urfan
Fuad Alqayev
Şahin Xəlil

KİTABXANA.NET
CINELINE.az
kinomansan?
https://www.facebook.com/kinomansan
TAG MAG

4 Krzysztof Kieślowski (Kənan İsaxanlı)
8 Edward Norton (Ayşə Eleanor)
10 Amy Adams (Məlahət Qurbanəliyeva)
14 Paolo Pazolini (Fuad Alqayev)
17 İn Vino Veritos (Elmidar Süleymansoy)
19 Alejandro G. İnarritu (Şahin Xəlil)
22 Çağan Irmak (Tural Məmmədli)
26 Thomas Newman (Nuranə Axundzadə)
29 Carlos Reygada (Elmidar Süleymansoy)
31 Decalogue (Nurlan Həsənli)
33 Sen Aydınlatırsın Geceyi (Leyla Nənə)
36 Laslo Krasnahorkai (Şahanə Urfan)

»s.19

»s.26

»s.8

»s.10


»s.22

»s.30

KRZYSZTOF KIEŚLOWSKI

KİNO ESTETİKASINI DƏYİŞƏN REJİSSOR

“Filmlər heç bir şeyi dəyişdirə bilməz, amma insanların bir çox şeyi başa düşməsinə kömək edə bilər, dünyanı dəyişdirəcək olan şey filmlər deyil, o fimləri izləyən insanlardır.



Bir çıxışında Kieslowski’dən ən sevdiyi rejissorun kim olduğu barəsində sual soruşurlar. O da cavab olaraq Dostoyevski, Kafka, Şekspir deyə cavab verir. Jurnalistlər təəccüblənir və ondan bu saydıqlarının rejissor olub-olmadığını soruşurlar. Kieslowski “Xeyr, onlar yazıçıdırlar və bu da mənim üçün bir filmdən daha üstündür” cavabını verir. Mənə də ən sevdiyim şair kimdir deyə sual versələr, Kieslowski deyə cavab verərəm. Çünki onun sənəti mənim üçün kitabdan daha üstündür. Kieslowski kinonun şairidir. Gəlin kinonun şairi olan bu insanı bir az yaxından tanıyaq...

27 iyun 1941-ci ildə Varşavada dünyaya gələn Kieslowski atasının vərəmdən əziyyət çəkməsi səbəbilə Polşada bir çox şəhəri gəzmək məcburiyyətində qalmışdı. Atası bir sanatoriyadan digərinə göndərilərkən, Kieslowski demək olar ki, bir mühacir həyatı yaşamışdı. Buna görə də bu böyük rejissor Polşada yaşadığı qədər, Polşanı da yaşamışdır deyə bilərik. Uşaq yaşlarında yanğınsöndürən olmaq istəyən, sonradan Lodz Film Akademiyasına 2 dəfə müraciət edən Kryzstof qəbul ola bilmədi. Bir müddət sonra rəsm akademiyasında oxuyan Kryzstof, nəhayət, 1965-ci ildə Film Akademiyasına qəbul oldu. Akademiyada gənc Kryzstofla bərabər təhsil alanların arasında Roman Polanski, Andrzej Wadja, Jerzy Skolimowski və Krzystof Zanussi tanış insanların adlarını çəkə bilərik. Belə bir mühitdə özünü inkişaf etdirən Kryzstof özünün “Tramvay” adlı ilk qısametrajlı filmini də çəkmək imkanı əldə etdi. Bu film ağ-qara formatda olub, tramvayda yalnız bir kişinin bir qadından xoşu gəlməsi və tovlamaq cəhdlərindən bəhs edir. Bu filmdən sonra gənc Kryzstof çəkdiyi “Ofis” filmi ilə o dövrdə ölkədə olan kommunist rejmini tənqid edir. 1970-ci ildə “Fabrik”, 1970-ci ilin ortalarında isə “İlk məhəbbət” adlı filmlərini bitirir. Polşada “əxlaqi narahatlıq” adı verilən 1970-ci illərin sonunda rejissor özünün “Kamuflaj” və “Mərmər adam” adlı növbəti qısametrajlı filmlərini ekranlaşdırır. Daha sonra çəkdiyi “Tərcümeyi-hal” filmində hökuməti tənqid etməsini deməsinə baxmayaraq, öz məsləkdaşları tərəfindən hökumətlə əməkdaşlıq etməsi ilə günahlandırıldı. Ümumiyyətlə, Kieslowski yaradıcılığını qısametrajlı sənədli filmlər və uzun-

metrajlı filmlər kimi iki hissəyə ayıra bilərik və o, 1981-ci ildə çəkdiyi "Stansiya" filmi məhkəmədə əleyhinə sübut kimi göstərildikdən sonra yaradıcılığının qısametrajlı sənədli filmlər olan ilk hissəsini burda dayandırdı. Rejissorun ilk uzunmetrajlı filmi "Yara"dır. 1979-cu ildə "Kamera düşgünü" filmini lentə almışdır. Bir müsahibəsində "Film çəkmək əsəblərinizi korlayan bir şeydir və yeri gəldiyində ailənizi, emosiyalarınızı, şəxsi həyatınızı və başqa hər şeyi ikinci plana atmağa məcbursunuz" deyən Kieslowski, bu filmdə adi bir işçinin bir kameraya sahib olmasından sonra rejissorluğa gedən yolu, necə bir kamera düşkününə dönməsindən bəhs edir. Çoxlarının iddia etdiyi kimi bu filmdə Kieslowski məhz öz portretini təsvir etmişdir. Polşada "Ümid və Məyusluq" (1980-ci illər sonrası) adı verilən və kütləvi tətillər, işdən ayrılmalar ilə yaşanılan bir dövrdə rejissor "Kor Tale" adını verdiyi filmini bitirmişdir. Daha sonra ekranlaşdırdığı "Sonsuz" adlı filmində isə Kieslowski simvolik olaraq hərbi vəziyyət sonrası dönəmdəki Polşanı təsvir etmişdir.

Nəhayət, 1988-ci ildə Polşa televiziyası üçün planlaşdırılan, rejissorun şah əsərlərindən sayılan Krzysztof Piesiewicz ilə senarilərini yazdıqları, 10 filmdən ibarət "Dekalog"u çəkməyə başlayır. Hər bölümün təqribən 1 saat davam etdiyi "Dekalog" da Hz.Musa'nın "10 əmri" mövzusuna toxunulmuşdur. Sonradan "Öldürməyəcəksən" maddəsinə çəkilmiş seriya – "Ölüm haqqında qısa film", "Zina etməyəcəksən" maddəsinə çəkilmiş seriya isə "Məhəbbət haqqında qısa film" adları ilə ayrıca bədii film halına gətirildi. İlk baxışdan toxunduğu mövzu baxımından Kieslowski dindar hesab oluna bilər, lakin verdiyi müsahibələrdə özünü heç bir dinə aid hesab etmədiyini, öz içində dindar biri olduğunu bildirmişdir. Kieslowski öz içindəki yaradıcıya inanırdı və başqa hər hansı bir dinin boyunduruğu altına girməkdən imtina edirdi.

Kieslowski'ni məşhurlaşdıran "Veronikanın İkili Yaşamı"dır. 1991-ci ildə ekranlaşdırdığı bu filmin ana mövzusu, Kieslowski'nin öz sözləri ilə desək, "Daha diqqətlə yaşayın, çünki elədiklərinizin nəticəsini özünüz də bilmirsiniz, tanıdığınız və ya tanımadığınız insanların nələr edə biləcəyini bilmirsiniz"dir. Nələr yaşayacağımız etdiyimiz seçimlərin nəticəsində müəyyən olunması və ya bəzən təsadüflərin (Kieslowskiy'ə görə, bu təsadüflərdə tanımadığımız milyonlarca insanın təsiri vardır) istiqamətləndirmiş olması Kieslowski yaradıcılığının əsas dayaq nöqtəsidir. "Veronikanın ikili yaşamı" filmində hakim olan sirli atmosfer (həyatın gizli, görünməyən üzü) eyni zamanda həyatın özü ilə kəsişmişdir. Kieslowski həyatın kəsişmələrdən ibarət olduğunu, elədiklərimizin qarşılığını ödəyəcəyimizi və nəticə etibarilə məsuliyyət daşıdığımızı bildirir. Kieslowski bu filmdə Polşada yaşayan Weronika ilə Fransada yaşayan Veronique'nin hekayələrini bəlkədə ola biləcək ən maraqlı bir şəkildə tamaşaçılara təqdim edir.

1990-cı illərin ortalarında çəkdiyi "Üç rəng" trilogiyası Kieslowski yaradıcılığının zirvəsi hesab olunur. Trilogiyanın filmləri "Mavi", "Bəyaz", "Qırmızı" adlanır. Adlarını Fransa bayrağında olan rənglərdən alan filmlərdə müvafiq olaraq azadlıq, bərabərlik, qardaşlıq mövzularına toxunur. Bu üç filmdə bəzi ortaq səhnələr mövcuddur. Bunlardan ən təsirlisi əlindəki şüşəni təkrar emal üçün ayrılmış zibil qutusuna atmağa çalışan yaşlı qadının olduğu səhnədir. Bu qadın, mavidə şüşəni qutuya ata bilmir, bəyazda bir az çətinlik çəkir, ama ata bildiyini görürük, qırmızıda isə filmin baş qəhrəmanı Valentin, yəni İrene Jacob, yaşlı qadının yanına gedib, ona şüşəni zibil qabına atmağa yardım edir. "Qırmızı"da baş qəhrəman olaraq qarşımıza İrene Jacob, "Mavi"də Juliette Binoche, "Bəyaz"da isə Julie Delpy çıxır. Bu trilogiyada bu üç – azadlıq, bərabərlik, qardaşlıq məfhumlarına günlük həyatda onların həqiqətən necə işlədiyi barəsində düşünərək, tamamilə həyati və şəxsi pəncərələrdən baxırıq. Bu məfhumlar insan təbiəti ilə təzadlıdır və insan həyatda onlarla tək-tək qarşılaşdığı zaman necə yaşayacağını bilmirik. İnsanlar həqiqətənmi azadlığı, bərabərliyi, qardaşlığı bu qədər çox istəyirlər deyə soruşan Kieslowski, eynilə "Dekalog"dakı kimi mövzulara tək-tək yanaşmış, bu üç rəngin insan həyatındakı rolu, həyatımızda nə qədər var olduğu və bizim bu anlayışlar qarşısında həyatımızı necə istiqamətləndirib, onlarla haralarda qarşılaşdığımız kimi nüanslara toxunmuşdur. Kieslowski'nin bu trilogiyasında çox həssas, emosional səhnələr var. Amma Kieslowski bunla-

rın heç birində ifratçılığa getməmişdir. Bəlkə də bu trilogiyanın bir şah əsər hesab olunmasının əs əsas səbəblərindən biri də budur: təbiilik və səmimilik. Personajların hər birinin başına gələn hadisələr bizim yaşamımızdan bir parçadır. Ya da hələ yaşamamış olduğumuz, yaşayacağımız yaşamdan. Tale məfhumuna, ”həyatın bizimlə bağlı heç vaxt başa düşə bilməyəcəyimiz planları var” kimi fikirlərə dərindən bağlı olan Kieslowski, əvvəlki filmləri kimi bu filmdə də bunları bizə hiss etdirir. Həyata nə qədər yön verməyə çalışsaq da səmərəsizdir, əlimizdə olmayan hər hansı bir kiçik dəyişiklik hər şeyi dağıda, o ana qədər planladığımız hər şeyi məhv edə bilər. Və “Mavi”də toxunduğu azadlıq məfhumu ilə bağlı Kieslowski: “Əslində azadlıq və sevgi bir-biri ilə təzad təşkil edir. Əgər biri sevərsə, digərinin azadlığını məhdudlaşdırar. Bir qadını sevər, həyatınızı yaşayar və bilmədiyiniz yönlərinizi həmin qadının gözlərindən görə bilərsiniz. Azadlığımızı məhdudlaşdıran çox şey var: bir it, bir maşın, bir televizor. Filosofluq etmək istəmirəm ,amma bu nümunələrlə insan azadlıq məfhumunu düşünə bilər. Məhz bizim eləmək istədiyimiz şeyin də əsas məğzi budur ”– deyə buyurmuşdu.

Filmləri haqqında danışarkən tez-tez kommunizm, Hitler, Lenin kimi adlar çəkən Kieslowski’nin yaradıcılığı üzərinə 2-ci Dünya Müharibəsinin və onun sonrasındakı vəziyyətin nə qədər təsiri olduğunu anlaya bilərik. Bu səbəblə özünün də dediyi kimi siyasətdən uzaqlaşmış və sənətinə apolitik deyə biləcəyimiz bir münasibət bəsləmişdi. Amma bu apolitikal münasibət heç vaxt hər şeyə biganə tərzdə olmamışdır. O, dünyanın dəyişməsi və xəyal etdiyi ideallara çatması üçün ən əsas faktor olan insanı düşünmüş, yuxarıdan aşağıya doğru deyil, aşağıdan yuxarı doğru bir əlaqə yaratmaq istəmişdir. Məhz buna görə də Kieslowski özündən yüz illər öncə yaşamış filosoflar kimi kameranı bir fəlsəfə alətinə çevirmişdi. Kinonun ədəbiyyat qədər güclü olmadığını deyən Kieslowski yenə də gördüklərini, görmək istədiklərini ekrana əks etdirməyi üstün tutmuşdur. Bunun səbəbi isə əlbəttə ki, fikirərini insana daha rahat, və daha vizual bir üsulla çatdırmaq olmuşdur.

Əslində hər şeydən öncə Kieslowski kinonun şairidir. Çünki filmlərində istifadə etdiyi hər əşya başdan sona qədər çox təsirlidir. Hər səhnədə, hər dialoq və monoloqda, səssizlikdə belə çox vacib detallar gizlənir. Kieslowski filmlərinə bir dəfə də olsun boş səhnə əlavə etməmişdir. Kieslowski filmlərində səhnələrarası keçidlərlə, istifadə etdiyi filtrlərlə, musiqilərlə, məkanlarla inanılmaz bir əlaqə və özünün vizual qafiyəsini yaradıb. Bunlar bəlkə də tamaşaçılar tərəfindən ilk dəfə baxıldıqda aydın olmaya bilər, lakin filmlərə ikinci və ya üçüncü dəfə baxdıqda heç kim bu qafiyələrin qüsursuz uyğunluğundan zövq almaya bilməz. Rejissorun istifadə etdiyi çəkiliş texnikası da söz edilməyə dəyər başqa bir mözvzudur. Məsələn, “Mavi”nin başlanğıc səhnəsində maşının hidravlik yağının damla-damla sızıntısı insanın içində nəsə uğursuz, pis bir şey olacağına işarədir və insanın içində istər-istəməz bu kimi fikirlər oyadır. Rejissorun digər filmlərində bu kimi “xəbardarlıq” səhnələri boldur. Əlavə olaraq, birləşik səhnələrdə dəyişən incə detallar bir-birini tamamlayır. Buna da bir nümunə olaraq “Dekalog 1”də həyatda hesablana bilməyəcək heç bir şey olmadığına inanan, ruhun varlığını qəbul etməyən bir atanın oğlunun ölümünə qədər qədər uzanan zaman aralığındakı çox incə bir detalı verə bilərik. Hər nəticənin hesablana biləcəyini düşünən və bunların maddi səbəblərdən olduğuna inanan bir riyaziyyat professoru bir gün oğlu ilə birlikdə öncəki günün hava məlumatlarını alır və növbəti gün üçün göldə buzun qalınlığını hesablayır. Donan göl təqribən 275 kiloluq bir kütləyə tab gətirə bilərdi. Lakin Kieslowski-nin tale və həyatın planları ilə bağlı fikirlərini yenidən düşünsək xatırlaya bilərik ki, bəzən bir çox şey planladığımız kimi getməz. Oğlu buz üstündə sürüşərkən ata evdə işləyirdi. Birdən mürəkkəb şüşəsi partlayır və professorun kağızları və qarşısında olan kitab mürəkkəbə boyanır. Bu tamamilə əvvəlcədən görülə bilinməycək bir situasiya idi. Stolu təmizləyərkən qonşusu zəng edir və professorun oğlu ilə buz üzərində sürüşməyə gedən oğlu haqqında narahat olduğunu söyləyir. Mürəkkəb şüşəsinin duran yerdə partlaması ardından gələn daha böyük bir fəlakətin başlanğıcı... Kieslowski bəzən bunun tam tərsini edər. Gözlənilməyən gözəl bir sürprizdən sonra qəhrəmanımızın başına nəsə uğursuz bir şey gələr. Yəni həyatda bütün uğursuzluqlar və sürprizlər bir-biri ilə inanılmaz bir şəkildə bağlıdır və aralarında bir qafiyə mövcuddur.



Və insan övladı təəssüf ki, bu əlaqəni izah etməkdə acizdir.

Vizual təsvirlərin yanında səslər və musiqi də Kieslowki filmləri üçün çox böyük önəm daşıyır. Kieslowski yaradıcılığından danışarkən Zbigniew Preisner'dən söz açmamaq çox böyük yanlışlıq olardı. Kieslowski'nin yaxın dostu olan bu bəstəkar bəstələdiyi musiqilər ilə rejissorun filmlərinə ölümsüz ruh qazandırmışdır deyə bilərik. Musiqilərdən əlavə bəzi səhnələrdə istifadə olunan səslər, bəzən bir personajın sadəcə nəfəs alıb verməsini eşitməyimiz, ya da bir uşağın boğuq səslə danışması hər zaman həm öz-özlüyündə həm də filmlə birlikdə çox böyük bir vəhdət yaradır. Kieslowski filmlərində təsvirlərin güzgülərdə, şüşələrdə əks olunması çox ayrıca bir özəllikdir. Şüşə insanları həm ayıran, həm də birləşdirən bir şeydir. Personajların güzgülərə düşən əksləri, onların üzərinə düşən işıqlar, kölgə oyunları o an personajların ruh hallarını bilməyimizə kömək olur. Kieslowskinin sirri də belə səhnələrdə üzə çıxır, tamaşıçını detallarla bezdirmədən, saniyəlik təsvirlərlə və incəliklərlə mövzunu bütünlükə ələ alıb, bir film nədir sualına cavab verir.

Kieslowski filmlərində tamaşıçıları istədiyi kimi istiqamətləndirir və onlara personajlarla empati yaratması üçün şərait yaradır. Bəhs etdiyimiz bu empati müxtəlif yollarla yaradıla bilər. Lakin bunun ən əsas yaradıcısı, heç şübhəsiz, səmimiyyətdir. Əsərlərindəki səmimiyyətdən heç vaxt şübhə edə bilmədiyimiz bu böyük yazıçı-rejissor personajları başa düşməyimiz və mövcud situasiyanı onların gözləri ilə görməyimizi istədiyində bəzən Juliette Binochenin yaralı gözünün içinə soxar bizi və hər şeyi tutqun görməyimizi, və beləliklə Binochonun yaşadığı tutqun, dağılmış həyatı başa düşməyimizə yardım edər.

"Üç Rəng" trilogiyasını bitirdikdən sonra bir daha rejissorluq etməyəciyini açıqlayan Kieslowski "evimə gedib siqaret çəkəcəyəm" deyir. Karyerasına son nöqtəni qoyan bu cümlənin belə altında çox gizli məqamlar vardır. Filmlərində toxunduğu azadlıq, bərabərlik, qardaşlıq məfhumlarına çox bağlı olan Kieslowski film çəkiliş meydançasında 4 fərqli – Almaniya, Polşa, Fransa, İngiltərədən olan insanlarla işləmişdir. Amma Kieslowski "Özünüzü avropalı hiss edirsinizmi?" sualına bəlkə də sənətinin ruhunu açıqlayan bir cavab vermişdir. "Xeyr, özümü polşalı hiss edirəm, hətta özümü Polşanın şimal-şərqində yerləşən balaca bir kəndə sahib olduğum evə aid hiss edirəm, orada yaşamaqdan xoşbəxtəm, ama orada işləmirəm, film çəkmirəm, sadəcə odun toplayıram". Bir gerçək sənət insanının özündən, aid olduğu yerdən qopmadan dünyəvi olması necə imkansızdırsa, Kieslowski də bu gerçəyin təməlləri ilə yaşadı və dünyaya böyük bir miras buraxdı.

EDWARD NORTON

BİOQRAFİYA

Edward Norton 18 Avqust 1969 – cu ildə ABŞ-ın Massaçusets ştatının Boston şəhərində anadan olub. Atası Edward Mower Norton vəkil, anası Lydia Robinson isə müəllim olmuşdur. Aktyor, uşaqlıq illərini Kolumbiyada keçirmişdir. Kiçik yaşlarından etibarən ağlı və ciddiliyi ilə ətrafındakıların diqqətini çəkən Norton'un aktyorluğa olan marağı hələ beş yaşında olarkən, sonradan özü də aktrisa olan baxıcısı Betsy True ilə birlikdə getdiyi "Sindrella" ("Cinderella") adlı operettada başlamışdır.

Bundan qısa müddət sonra Kolumbiyanın Orensteynov adlı teatr məktəbində oxumağa başlayan Norton, ilk səhnə həyəcanını səkkiz yaşında dadmışdır. Kiçik yaşına baxmayaraq, rolunu böyük professionallıqla canlandıran Norton, bundan sonrakı rollarında da ciddiliyini davam etdirdi.

Liseydən sonra Yeyl Universitetində astronomiya, tarix və yaponca təhsili alan aktyor, universitetin teatr sahəsində də fəal fəaliyyət göstərmişdir.
O, tarix diplomunu aldıqdan sonra bir neçə ayını Yaponiyada keçirdi və burada babasının "Enterprise Foundation" adlı şirkətində işləməyə başlayır. Bu dövrdə də aktyorluq mövzusunda qarşısına çıxan hər fürsəti qiymətləndirməyə davam edən aktyor, nəticədə aktyorluğu peşə olaraq mənimsəməyə qərar verdi.

1994-cü ildə Edward Albeenin "Fraqmentlər" ("Fragments") adlı tamaşası üçün aktyor seçmələrinə qatıldı və seçmələrdə sərgilədiyi diqqətçəkici performansla rolu asanca aldı. Ardınca o, Nyu-Yorkun bir neçə teatr səhnəsində çıxış edir və nəticədə "New York Signature Theater Company" şirkətinə qəbul edilir.

Daha sonra aktyor, 2100 adamın qatıldığı seçmələri keçərək "Primal Fear"də rol aldı. Seçmələrə gələn rejissor, Norton'un qüsursuz bir Kentucky aksentiylə danışdığını eşitdiyi anda (canlandırılacaq xarakterin gəldiyi yer Şərqi Kentucky idi) rolu Nortona verməyə qərar vermişdi.
Deyilənə görə, Norton bu aksenti "Koal Minerin qızı" ("Coal Miner's Daughter" (1980)) filmini izləyərək öyrənmişdi. Seçmələrdə olanlar arasında, aktyorun səhnədə göstərdiyi performansı görüb təsirlənməyən adam yox idi.

1996-cı ildə rol aldığı "İlk qorxu" (Primal Fear) adlı filmdəki roluyla aktyorun ulduzu bir anda parladı. Filmdəki nəfəs kəsən performansı ilə "Qızıl Qlobus" mükafatına layiq görülüb, ardından da Oscar'a və BAFTA mükafatına namizəd göstərilən Norton, "Amerika tarixi X" ("American History X"), "Xalq Larri Flintə qarşı" ("The People vs. Larry Flynt") və "Döyüş klubu" ("Fight Club") kimi müvəffəqiyyətli filmlərlə yoluna davam etdi.

Eyni ildə (1996-cı il) Woody Allen'in rejissoru olduğu "Hər kəs səni sevirəm deyir" ("Everyone Says I Love You") adlı Hollywood operettasında Drew Barrymore'nin nəzakətli nişanlısını canlandıran aktyor, rolundakı mahnıları özü söyləyərək bu sahədəki müvəffəqiyyətiylə də tamaşaçıların diqqətini cəlb etməyi bacarmışdı.

Bir il içində bir-birindən bu qədər fərqli iki filmdə rol alan aktyor, Milos Forman'ın bəyənilən filmi "The People vs. Larry Flynt" adlı filmdə də əzmli vəkil roluyla diqqətləri üzərində yığmışdı.
1998-ci ildə Nortonun iki ayrı filmdəki performansı yenə kinosevərlər tərəfindən bəyənildi. Bunlardan birincisi, "Rounders" filmindəki, Matt Damon'un "Soxulcan" ləqəbli yoldaşı rolu idi. Siqaret çəkməyə nifrət edən Norton, bu filmin ssenarisini dəyişdirərək xarakterinin siqaret çəkməməsini təmin etdi. Film haqqındakı şərhlərin qeyri-kafiliyi aktyorun müvəffəqiyyətini də bir az kölgələdi. Eyni ildə rol aldığı "American History X" filmi də box-office'də çox müvəffəqiyyət əldə edə bilmədi, amma Norton filmdəki roluyla tamaşaçıları heyran buraxaraq Oscar namizədliyini əldə etdi.

1999-cu ildə Brad Pitt və Helena Bonham Carter ilə birlikdə "Döyüş klubu" ("Fight Club") filmində rol aldı. Ardınca 2000-ci il istehsalı olan "İman saxlanması" ("Keeping the Faith") ilə rejissorluğa addım atan Norton, filmdə eyni zamanda ən yaxın yoldaşıyla eyni qadına aşiq olan keşiş rolunda idi. 2001-ci il istehsalı olan "The Score" filmində yenə tam fərqli bir şəxsiyyətlə - təcavüzkar və qabiliyyətli gənc bir oğru olaraq - pərəstişkarlarının qarşısına çıxdı. Aktyorun filmdəki rol yoldaşları arasında, Hollywoodun nəhəng adları Robert də Niro və Marlon Brando da vardı.
2002-ci il istehsalı olan "Smoochy-a ölüm" ("Death to Smoochy") komediya janrlı filmində Norton, sadəlövh uşaq verilişinin aparıcısı rolunu oynamışdır. Həmin ildə "Frida" (2002) filminin ssenarisini tamamlayır və film çəkilir.

Aktyor "Qırmızı əjdəha" ("Red Dragon" 2002) filmində rol alır və filmdə oynadığı rolu ilə kinotənqidçilərin müsbət rəyini alır.
Yenə 2002-ci ildə çəkildiyi "25-ci saat" ("25th Hours" 2002) filmi ilə də izləyicilərin rəğbətini qazanır.

2003-cü ildə "İtalyan işi" ("The Italian Job") filmində Charlize Theron, Mark Wahlberg kimi aktyorlarla birgə rol alır.

Az bir müddətə yaradıcılıq məzuniyyətinə çıxan aktyor, həmin ərəfədə səyahət etmiş, pilot təlimi keçmişdir. 2005-ci ildə "Aşağı Vadidə" ("Down in the Valley") filmi ilə prodüser və baş rol ifaçısı kimi səhnəyə qayıdır.

Eyni ildə “Cənnətin krallığı” (“Kingdom of Heaven”) filminə çəkilir.
Aktyora ən uğur gətirən filmlərindən biri isə “Sehrbaz” (“The Illusionist” 2006) filmidir. Bu filmdə Norton öz sənətini çox gözəl səviyyədə və intellektuallığı ilə nümayiş etdirir. Və film kinotənqidçilər tərəfindən bəyənilmişdir.

2008-ci ildə “Ağlasığmaz Halk” (“The Incredible Hulk”) filmində aktyor rol alır. Ancaq bu film çox da uğurlu olmur. Daha sonra “Qürur və Şöhrət” (“Pride and Glory”) filmində Norton, qaranlıq keçmişi olan detektiv rolunu oynamışdır.

2009-cu ildə rejissoru Tim Blake olan “Leaves of Grass” filmində Edward Norton, biri fəlsəfə professoru, digəri isə bir ot yetişdiricisi olan tək yumurta əkizlərini canlandırır. Bu filmdə o, həm baş rol həm produser, Tim Blake isə həm rejissor, həm ssenarist, həm də aktyor olaraq iştirak edir.

AMY ADAMS

BİOQRAFİYA

Emi Adams (tam adı Emi Lou Adams) 1974-cü il 20 avqust tarixində İtaliyanın Aviano şəhərində Riçard və Ketrin Adamsların ailəsində dünyaya gəlmişdir. Eminin atası hərbçi idi və bir müddət İtaliyada yerləşən hərbi hissədə xidmət edirdi. Lakin Eminin yeddi yaşı olanda onların ailəsi artıq Kolorado ştatında yerləşən Kast Rok şəhərinə köçmüşdülər. Sonralar onun atası Riçard hərbi qulluğu ataraq müğənni olmuş, tez-tez gecə klublarında və restoranlarda çıxış edirdi. Odur ki, Emi yaradıcı mühitdə böyümüşdür. Onun valideynləri mormon idilər və öz övladlarında dinə qarşı

hörmət yetişdirməyə çalışırdılar. Lakin Emminin 12 yaşı tamam olanda ailəsi kilsəni tərk etmişdi.
Orta məktəbdə Emi Adams məktəb xorunda oxumuş, yerli teatr tamaşalarında aktiv iştirak etmiş, Devid Teylorun rəqs məktəbində baletlə məşğul olmuş və vaxtının əksər hissəsini heykəltəraşlığa həsr etmişdir. Məktəbdə tədris olunan fənlərdən Emi humanitar elmlərə daha çox meyl etmiş, xüsusən də ədəbiyyatı çox sevmişdir. Ədəbiyyata olan sevgisi Emiyə teatrda çox yardımçı olurdu. Bunula belə, qeyd etmək lazımdır ki, orta məktəbdə oxuyarkən Emi həm balet, həm teatr, həm də xor dərslərinə eyni həvəsi göstərmiş, bunlardan hər birinə özünü eyni əzmlə həsr etmişdir.
Yeniyetmə yaşlarında Emi ciddi şəkildə yüngül atletika ilə məşğul olurdu. Valideynləri də qızlarını idmanla məşğul olmağa həvəsləndirirdilər. Adamsların ailəsində Emidən əlavə daha altı övlad (iki qız və dörd oğlan) böyüyürdü. Odur ki, valideynləri övladlarına kollec təhsili verə bilməyəcəklərini anlayırdılar. Uğurlu idmançı olması Emiyə stipendiya proqramı hesabına kollecdə təhsil ala bilmək imkanı verirdi. Lakin Eminin öz arzuları var idi. O, peşəkar balerina olmaq istəyirdi. Odur ki, Emi atletikanı atıb özünü dərslərə, Devid Teylorun rəqs məktəbinə qəbul olmağa imkan verəcək imtahan nəticələrinin əldə olunmasına həsr etdi. Bununla belə, 18 yaşı olanda Emi nə qədər səylə çalışmasından asılı olmayaraq, heç vaxt yaxşı balerina ola bilməyəcəyini düşündüyündən baleti də atır. Bu dəfə onun seçimi musiqili teatr üzərinə düşdü. Gənc qız musiqili teatrın özünü ifadə etmək üçün daha geniş imkanlar yaratdığına inanırdı. Emi daima ulduz olmağı arzulamışdır və bir dəfə onu yaralanmış aktyoru əvəz etmək üçün “Boulder`s Dinner” teatrına dəvət etdilər. Hazırlığa çox az vaxtı olmasına baxmayaraq, Emi bütün mahnı və rəqsləri çox diqqətlə öyrənmiş, tamaşanın lent yazısını əzbərləyənədək təkrarən izləmişdir.
Orta məktəbi bitirdikdən sonra Emi “The Gap in Atlanta” (Atlantada dağlar arasındakı məşhur turistik ərazi olan uçurumun şərəfinə adlandırılmışdır) mağazasında işə düzəlmişdir. Emi oradakı işi haqqında deyir: “Mən həmin vaxtlar Atlantada yaşayırdım. Oralar dağlıq ərazilərdir və mən uçurum üzərində yerləşən bir mağazada satıcı işləyirdim. Əslində mən anbarda işləmək istəyirdim, lakin mağazanın meneceri mənə məhz mağazanın girişində, birbaşa alıcılarla işləməli olduğumu söylədi. O, mənim hər bir insanla dil tapdığımı söyləyirdi”. Bununla paralel olaraq Emi həm də ofisiant kimi çalışırdı. 90-ci illərin ortalarında Emi çox nüfuzlu teatr olan “Chanhassen Dinner Theater” teatrında çalışmağa başladı. Teatrın direktoru Maykl Brindizi o zaman qeyd etmişdir: “Gəlin açıq danışaq, Emi çox qeyri-adi aktrisadır. Mən onu tapmışam və indən sonra onun karyera inkişafında birbaşa iştirak etmək istəyirəm”. Brindizi Emi Adamsı ilk dəfə Denverdə, “Crazy for you” tamaşasına aktyor seçimləri zamanı görmüşdü. Həmin günü xatırlayaraq Brindizi deyir: “Onda o qədər cazibə var idi ki, Emi dərhal rola qəbul edildi”. Emi bu teatrda üç ildən artıq müddətdə çalışmışdı və onun sözlərinə görə həmin illər ona bir çox şey bəxş etmişdi.

Elə məhz “Chanhassen Dinner Theater”-in səhnəsində olarkən Emi və onun təkrarolunmaz cazibəsi prodüsser Maykl Nelosnun diqqətini cəlb etmişdi. Növbəti ildə (1999-cu il) Emi Minnesota ştatında çəkilmiş “Drop Dead Gorgeous” (“Heyranedici gözəllər”) filmi ilə ekranlarda debüt edir. Kristi Alleyin (Kristie Alley) təkidi ilə filmin təqdimatı üçün Emi ABŞ-ın kinematoqrafiya beşiyinə təşrif buyurdu. “Los Ancelesə gəlməyim mənim həyatımı tamamilə dəyişdi. Hollivuda gəlmək fikri heç mənim ağlımdan da keçmirdi. O vaxtlar mənə elə gəlirdi ki, filmlərə xüsusi insanlar çəkilir. Amma film aktyorları olmaqla yanaşı, sadə insan kimi qalmağı bacaran insanlarla tanışlıq bu haqda olan fikrimi tamamilə dəyişdi. Kristi də mənim bu işə yaradığımı düşünürdü. Qəribədir, amma bəzən insanın kənardan veriləcək bir təkana ehtiyacı olur”.

Los Ancelesdə olarkən Emi “The Firm” şirkətinin meneceri Steysi Bonillo ilə tanış oldu və həmin şirkətin hazırladığı televiziya serialında rol aldı. Həmin serial Eminin Ketrin Merolun rolunu ifa edəcəyi nəzərdə tutulduğu “Qəddar oyunlar” filmində danışılacaq hadisələri təqdim etməli idi. Lakin “Fox Broadcasting” və “Columbia TriStar” şirkətləri arasında baş vermiş münaqişə nəticəsində serialın təzəcə başlamış çəkilişləri dayandırılmışdı. Artıq çəkilmiş materialdan isə sonradan “Qəddar oyunlar 2” (“Cruel İntentions2”) filmi hazırlanmışdı. Emi həmişə mənfi obrazı canlandırmaq istədiyini bildirsə də, Ketrin rolunun ifasında o çox da məmnun deyildi – “Mən ona (Ketrinə) haqq qazandıra bilmirdim. O sadəcə mənim xoşuma gəlmirdi və mən onun kimi olmaq istəmirdim. Los Ancelesə təzə köçəndə mən, demək olar ki, əsl ifritə xasiyyətli biri idim”. Daha sonra Emi “Çimərlik dəlilik” (“Psycho Beach Party”) komediya filmində Enn Marvelin rolunda, həmçinin “Bu, 70-ci illərin şousudur”, “Ovsunlanmışlar”, “Baffi, vampir ovçusu”, “Smolvillin sirləri” kimi seriallarda çəkilmişdir. Emi, həmçinin müxtəlif kinofestivallarda təqdim olunmuş “The Chorium Hook” filmində də iştirak etmişdir. 2002-ci ildə Emi “The Slaughter Rule” (“Qırğın qanunları”), “Pumpkin” (“Balqabaq”) filmlərində kiçik rollarda, “Serving Sara” (“Fırıldaqçılar”) filmində isə Metyu Perri ilə birgə çəkilmişdir. Bundan əlavə, Emi sevimli şousu olan “Qərb qanadı”da və qardaşı Eddinin

ssenari müəllifi olduğu “Pennies” (“Pennilər”) qısametrajlı filmində rol almışdır.
Bundan sonra Emi Leonardo Di Kaprio ilə birgə Stiven Spilberqin “Catch me if you can” (“Bacara bilsən, tut məni”) avantürist komediya filmində Brenda Stronq rolunda çəkildi. Spilberqin köməkçisi Eminin rollarından birini Spilberqə, o da öz növbəsində həmin videoyazını Di Kaprioya göstərmişdi. Eminin cazibəsi onların hər ikisini o andaca məst etmişdir. Eminin ifası kino-tənqidçilər və aktrisanın pərəstişkarları tərəfindən xoş qarşılanmışdı. “Bu rol mənim belə yüksək səviyyədə, bu cür görkəmli insanlarla birgə ilk işim idi. Stiven Spilberq mənə inandı...mən film aktrisası kimi hansı səviyyədə olduğumdan əmin deyildim. Bununla belə, bunun hələ son olmadığına və gələcəkdə daha yüksək səviyyəyə qalxacağıma ümid edirəm. “Bacara bilsən, tut məni” filminin çəkilişlərində qazandığım təcrübə mənə buna qadir olduğumu göstərdi”, deyə Emi qeyd edir.
Lakin “Bacara bilsən, tut məni” filmi ekranlara çıxdıqdan sonra tam bir il ərzində Emi heç bir yeni rol təklifi almamışdı. Bu fakt Stiven Spilberqi çox təəccübləndirmişdi – “Bizim kiyafət qədər uğurlu olan filmimizdən sonra Eminin belə az çəkilməsi məni çox təəccübləndirirdi. Əslində bu film ona yeni təkan verməli idi. Lakin Emi gözlənildiyi qədər məşhurlaşmamışdı”.
2004-cü ildə Emi “The Last Run” (Soununcu təqib”) filmində ikinci dərəcəli rol almış, “The King of the Hill” cizgi serialında bir neçə qəhrəman obrazını səsləndirmiş, “Doktor Veqas” televiziya serialında Elis Doqerti rolunu almışdır. Lakin bir müddət sonra müqavilə ilə bağlı yaranmış problemlər səbəbindən, Emi serialdakı rolundan azad edilmişdi. “Onlar mənim müqaviləmə dəyişikliklər etmək istəyirdilər. Güzəştə getmədiyim üçün məni roldan azad etdilər. Mənə elə gəlir ki, qadınlara qərar qəbuletmə prosesini nəzarət altına almaq üçün müəyyən zaman tələb olunur. Baş verən hər bir şeyin qismət olduğunu düşünüb, olanlara müdaxilə etmirsən. Həmin yay ilk dəfə idi ki, mən o müqavilənin şərtlərini yerinə yetirmək və sonrakı nəticələrə görə məsuliyyət daşımaq istəmədiyimi bildirdim. Yayın sonunda mən işsiz olsam da, xoşbəxt idim və verdiyim qərara görə özümlə fəxr edirdim”, deyə Emi qeyd edir. Az sonra “Doktor Veqas” televiziya serialı bağlanmışdı. Bununla belə, Emi Adamsı qarşıda bundan daha yaxşı rollar gözləyirdi.
2005-ci ildə Emi Adams “The Wedding Date” (“Toy Günü”) komediya filmində Debra Messinqin bacısı rolunda çəkilmişdir. Onun növbəti rolu “Junebug” (“İyun böcəyi”) filmindəki Eşli Consten obrazı olmuşdur. Bu rol onun karyerasında dönüş nöqtəsi oldu. Rejissor Fil Morrisson Emini “Bacara bilsən, tut məni” filmində görmüşdü. Lakin aktrisa özü bu filmə xoş təsadüf nəticəsində gəldiyini deyir: “Mən “Doktor Veqas” teleserialının çəkilişlərində idim, lakin studiya rəhbərliyi bir neçə gün ərzində mənə ehtiyac olmayacağını söyləyərək məni evə göndərdi. Əslində, mən işlərin bu cür gedişatından narazı idim. Lakin sonradan məlum oldu ki, mən həmin günlər “İyun böcəyi” filminin aktyor seçimlərində

iştirak etməliyəm. “İyun böcəyi” filminin çəkilişləri 2004-cü ilin yayında Şimali Karolina ştatının Uinston-Seylem şəhərində üç həftə ərzində başa çatmışdı”. Emi həmin yay ərzində özünü tapdığını deyir. Hətta filmin çəkilişləri bitdikdən sonra belə təbiətən sarışın olan Emi saçının rəngini filmdəki qəhrəmanı Eşlinin kürən saçları rəngində saxladı. Həmin il Eminin 30 yaşı tamam olurdu. Aktrisanın hər iki bacısı hamilə idilər. Aktrisa

özü isə filmdəki rolu üçün süni hamiləlik qarnı gəzdiridi.

Eşli Consten rolunu son dərəcə gözəl ifa etməsi Emiyə SunDance kinofestivalında mükafat qazandırdı. Bu uğur Eminin özünə olan inamını daha da artırmışdı. Bu rol ona mükafat qazandırmağa davam edirdi. “Milli Kino Tənqidçiləri Cəmiyyəti” ona bu roluna görə ən yaxşı ikinci dərəcəli qadın rolu mükafatı tədqim etmişdi. İfasına görə Emi “Oskar” mükafatına da namizəd olmuşdu, lakin həmin il “Oskar” aktrisa Reyçel Vayza təqdim olundu. “Bütün bu hadisələr tam zamanında baş verdi. Los Ancelesə köçəndən sonra ağlımı itirmədiyim üçün çox şadam. 20 yaşında ikən müstəqil həyat çox çətin olur. Mən çox utancaq biri idim”, deyə Emi qeyd edir. Bununla yanaşı, aktrisa “Oskar” almadığına hətta sevindiyini də qeyd edirdi: “Bu mükafatın adıma gətirəcəyi məşhurluq və diqqətə hazır deyildim. Mən həm də məzəmmət olunmaqdan qorxurdum”.

“İyun böcəyi” filminin auditoriyasının kifayət qədər dar olmasına baxmayaraq, tənqidçilər Emi Adamsın işini yüksək qiymətləndirirdilər. Bu isə öz növbəsində aktrisaya olan marağı artırırdı. “İyun böcəyi”dən sonra Emi “Standing Still” (“Geriyə baxmadan”) və “Talladega Nights: The Ballad of Ricky Bobby” (“Rikki Bobbi: Yollar kralı”) filmlərində çəkilmişdi. Emi Adams televiziya layihələrində iştirak təklifləri də alırdı. Həyatında baş vermiş hadisələrdən biri olaraq Emi “Ofis” teleserialındakı iştirakını qeyd edir. Burada o, Keti obrazını canlandırmışdır. 2006-ci ilə Emi “Tenacious D in The Pick of Destiny” (“Bəxtəvərlər”) və “Fast Track” (“Keçmiş məşuq”) filmlərində çəkilmiş, 2007-ci ildə isə Uolt Disney studiyasının layihəsi olan “Underdog” çoxseriyalı cizgi filminin səsləndirilməsində iştirak etmişdir.

2007-ci ilin sonunda Emi Disney studiyasının daha bir uğurlu layihəsi olan “Enchanted” (“Ovsunlanmış”) filmində çəkilməklə, nəhayət, əsl ulduza çevrildi. Filmin rejissoru Kevin Lima 200 namizəd aktrisa arasından qəti olaraq Emi Adamsı bəyənmişdi. “Emi seçimlərə gələn gün mən soyuqlamışdım. Özümü çox pis hiss edirdim. Lakin Eminin ifası mənə xəstə olduğumu unutdurmağı bacardı”. Ən geniş anlamda götürdükdə, həmin vaxtlar Emi geniş izləyici kütləsi üçün məşhur deyildi və rejissor seçimi təsdiqləməklə studiya böyük risk altına girirdi. Amma Eminin ifası riskin haqlı olduğunu göstərdi və nəticədə “Ovsunlanmış” filmi əsl xitə çevrilməyi bacardı. Filmdə Emi həm oynayır, həm də oxuyurdu və bununla bütün dünya üzrə milyonlarla izləyicinin qəlbini ovsunlamağı və tənqdçilərdən öz ünvanına təriflər qazanmağı bacarmışdı. Bu filmdəki roluna görə Emi Adams “Qızıl Qlobus”, “Critic`s Choise” afatları ş verdiyi komediya

mükafatları daxil olmaqla bir çox mükafat qazanmış, "Satellite Award" mükafatına namizəd olmuşdur. Bütün bunlar Emi Adamsa birinci dərəcəli aktrisa adı qazanmasına yardımçı oldu. Emi baş rollarda Tom Hensk və Culia Robertsin çəkildiyi "Çarli Uilsonun müharibəsi" filmində Bonni Bak rolunu ifa etmişdir.

2008-ci ilin fevralında SunDance festivalında "Sunshine

Cleaning" ("Tərtəmiz") filminin premyerası baş tutdu. Bu filmdə Emi oğlunun özəl məktəbdə təhsilinə pul yığmaq üçün qeyri-adı bizneslə, cinayət törədilmiş yerlərin təmizlənməsi ilə məşğul olmağa başlayan qadın obrazını canlandırmışdır. Bundan sonra Emi hadisələrin İkinci Dünya Müharibəsi ərəfəsində Londonda baş verdiyi komediya filmi "Miss Pettigrew Lives for a Day" ("Miss Pettiqryu bu günlə yaşayır") filmində baş rolu ifa etmişdir. Emi müğənni və aktrisa olan Delisiya Lafosun rolunu mükəmməlliklə yaratmışdır. Filmdə onunla birgə Eminin ən sevimli aktrisalarından biri Frensis Makdormand da çəkilmişdir.

2007-ci ilin sonunda Emi Meril Strip və Filip Seymur Hofmanla birgə "Doubt" ("Şübhə") filmində çəkilmişdi. Filmdə Meri Stripin canlandırdığı rahibə obrazı F.S.Hofmanın qəhrəmanını (rahibi) pedofiliyada günahlandırır. Emi isə müharibə aparan bu iki tərəf arasında qalmış gənc rahibə rolunu oynayır. "Şübhə" filmindən sonra Emi Meril Strip ilə daha bir filmdə "Julie & Julia" ("Culi və Culiya") bir yerdə çalışırlar. Meril Strip kulinariya aləminin əfsanəsi Culiya Çayldın rolunu, Emi isə məşhur müəllifin kulinariya kitabından olan bütün reseptlərin sirrini tapmağa çalışan həvəskar-aşpazın rolunu ifa edir. Eminin növbəti rolu "Night at the Museum2" ("Muzeydə gecə2") komediya filmindəki Emiliya Ertxartın obrazı olmuşdur.

2010-cu ildə Eminin iştirakı ilə daha iki film, "3 gün ərzində evlənmək" romatik komediyası və "The Fighter" ("Döyüşçü") bioqrafik dramı işıq üzü gördü. Sonuncuda Emi məşhur İrland boksçusu Mikki Uordun sevgilisi cəsarətli Şarlinq Fleminqin obrazını canlandırmışdı. "Döyüşçü" Ən yaxşı Film kategoriyasında "Oskar" namizədi olmuşdur. Aktrisanın filmdəki rolu çox yüksək qiymətləndirilmişdir. Kino-tənqidçi Co Morqenşteyn Wall Street Journal üçün yazırdı: "Emi "Ovsunlanmış" filmində nə dərəcədə heyranedici və gözəl idisə, "Döyüşçü" filmində də bir o qədər mətanətli, diqqətli, ağıllı və istehzalıdır. İnanılmaz dərəcədə istedadlı aktrisa!". Bu roluna görə Emi Adams "BAFTA", "Broadcast Film Critics Association Award", Kinoaktyorlar Gildiyası, "Qızıl Qlobus", və "Oskar" mükafatlarına namizəd olmuş, birinci iki mükafatı qazanmışdır.

2012-ci ildə Emi bütün karyerası ərzində bəlkə də mükəmməl rollardan biri, Pol Tomas Andersin "Master"filmində Filip Seymur Hofmanın canlandırdığı dini təşkilat liderinin nüfuzlu və amansız həyat yoldaşı Peqqi Dottun rolunu ifa etmişdir. "Rolling Stone" jurnalının yazarı Piter Trevers Eminin ifası haqqında qeyd edir: "Sadiq həyat yoldaşı obrazına qatdığı zərif despotizm üçün Emi Adams kino mükafatları birliklərinin ən yüksək diqqətinə layiqdir".

Elə həmin il Emi Klint İstvudun canlandırdığı beysbol məşqçisinin qızı rolunda çıxış etdiyi"Trouble with the Curve" ("Fırlanan top")filmi işıq üzü gördü. Film tamaşaçı və tənqidçilər tərəfindən birmənalı qarşılanmasa da, aktrisanın rolu bir daha müsbət qiymətlənidirilmişdir. AdamS, həmçinin Braziliyalı rejissor Valter Sallensin "Yolda" filmində də iştirak etmişdir. Burada o, narkotik vasitələrdən asılı olan şairə Ceyn Li obrazını yaratmışdır. Film Kann Festivalında təqdim olunmuş və qarışıq rəylər almışdır.

Yaxın gələcəkdə Emi Adams Spayk Consun "Onu" və Stiv Martinin "Gözəllik obyekti"filmlərində yer alacağı planlaşdırılır. Həmçinin, Emi ilk dəfə olaraq prodüser rolunda çıxış etməyi planlaşdırır. Bundan əlavə Emi "Qaranlıq sərhədlər" dramında da rola təsdiqlənmişdir.

PAOLO PAZOLINI

REJİSSORUN SON MÜSAHİBƏSİ

Bu müsahibə 31 oktyabr 1975-ci ildə Parisdə "Antenne-2" kanalında yayımlanan "Dix de Der" verlişində alınıb. Bu, rejissorun 1 noyabr 1975-ci ildə öldürülməsindən əvvəl verdiyi son müsahibəsidir.

Son filminiz - (Salò o le 120 giornate di Sodoma) kinoteatrlarda göstərilməyə başlayanda biz növbəti skandalın şahidi olacağıq?
Xeyr. Doğrusu insanların qanını dondurmaq, skandal yaratmaq böyük bir zövqdür. Skandal yaratmağın zövqünü rədd edən insan moralistdir.
Cinsəllik, siyasilikmi?
Təbii ki...
Skatologiya?
O da həmçinin. Siyasi olmayan heç bir şey yoxdur.
Hanibalizm?
Bəzən siyasi və real bir fakt, bəzən isə siyasi bir metafor.
Bu siyasi düşmənlərinizdən xilas olmaq üçün ən yaxşı yoldu sizcə?
Baxın, son zamanlar Swift kimi iki təklif irəli sürmüşdüm: ibtidai müəllimləri və italyan televiziya prodüsserlərini parçalayaraq yemək.
Sizcə, çox qəddarcasına deyil?
Mədəmiz sağlamdır.
Burjua və Burjuaziyaya həmişə kininiz qalıbmı?
Bu kin deyil, daha çox həm artan, həm də azalan bir şeydir. Təəssüf ki, bu məqamda kinə qarşı çıxmalı oluram, çünki İtaliyada hər kəs burjua olub.
Bəs burjualılar filmlərinizdən birinin uğurundan daha çox müvəffəqiyyət əldə edərsə, bu sizə təsir edər?
Burjualılar heç vaxt bunu edə bilməz. Bunu bacarsa, ancaq elit burjualılar edə bilər ki, mən özüm də onlardan biriyəm.
Niyə daha mübarizə aparmırsınız?
Nə mənada?
Artıq siyasi bir döyüşçü deyilsiniz.
Hal-hazırda siyasi müharibənin içindəyəm. Bu günə kimi heç bir partiyaya üzv olmamışam. Mən azad bir marksistəm. Müharibəyə davam edirəm.
İnsanların sizə küçədə söyüşlər yağdırdığı vaxtlar üçün darıxırsınızmı?
Hələ də söyürlər.
Bu sizə zövqmü verir?
Söyüşlərə cavab vermirəm, çünki mən bir moralist deyiləm.
Siz hansını seçərdiniz? Şair, roman yazarı, ssenarist, aktyor, tənqidçi, yoxsa rejissor?
Pasportumda "Yazıçı" deyə göstərilir.
Belə bir sirrdən, "Sodomun 120 günü"dən niyə hər yerdə danışdınız?
Bütün əsərlər sirrli başlamalıdır. Salo`nu digər filmlərimdən daha çox müdafiə edirəm, çünki onda yaxın, qəfləti təhlüklələr var.

Qəfləti təhlükələr deməklə nəyi nəzərdə tutursunuz?
Skandal yaratmaqdan qaçınan molaristin hücumunu.
Müharibə ərəfəsində İtaliyada qurulmuş bir cümhuriyyət modeli yaratdınız. Salo Fransada işğal vaxtındakı Vichy rejimini bir az xatırlatmırmı?
Bəli, şübhəsiz Vichy ilə eynidir.
Bu yer təxminən haradadır?
İtaliyanın şimalında, paytaxtı Salodur. Filmin adı da buradan gəlir.
Bəs bunu kim yaradıb?
Səhv etmirəmsə, Mussolini.
Geriləmə dövründə olduğunumu demək istəyirsiniz?
Böyük Qərb Kapitalizmi Dövründəki geriləmə yox, Hitlerin vaxtlarındakı geriləmə.
Filmdə yüzlərlə gənc oğlan və qızların qorxunc və şiddətli rəftarlara məruz qaldığını, hərəkətlərə və işgəncələrə göz yumduğunu bilirik. Bu gəncləri necə bir yerə yığa bildiniz?
Bunu edərkən Markiz De Sadın sehrli rəqəmlərini izlədim, 4 rəqəmi kimi... Qurbanlar cəmi 20 nəfər olardı, yüz deyil. Onları seçərkən digər filmlərimdə etdiklərimi təkrarladım. Yüzlərlə insanla tanış oldum və sadəcə uyğun olanları seçdim.
Bunlar mazoxist aktyorlardırmı?
Seçmişəmsə, demək, hər biri mazoxistdir.

1 noyabr 1975-ci il... Pier Paolo Pasolinin ölümündən bir neçə saat öncə Salo haqqında dedikləri:

Circeo cinayətindən öncə Sal Cümhuriyyəti haqqnda film çəkdiniz...
Bəli, görmək üçün səbirsizlənirəm. Filmimi əvvəl ola biləcəyi qədər qorxunc bir hiss, sonra isə düşündüyümüz faktların sakitliyi və harmoniyası olaraq düşünmüşdüm. Hələ də üzərində işləyirəm. Kino bir az da texniki işdir, səhnə səhnə, plan plan. Bu film adamı müəyyən məqamlarda düşündürür. Hələ montaj mərhələsindəyik. Nəticə həmçinin mənim etdiyim və istədiyim kimidir. Amma ilk dəfə baxmadan öncə bir neçə məqam da var. Narahatam və qorxuram.

2 Noyabr 1975-ci il... Pier Paolo Pasolinin döyülmüş cəsədi Romadan kənarda, Ostia adlı bir yerdə, tərk edilmiş ərazidə tapıldı...

Əgər alkoqol danışa bilsəydi, o da insan haqqında çox şey deyə bilərdi.
(A. Hiçkok)

IN VİNO VERİTAS

VƏ YA FİLMDƏ ŞƏRAB

Müasir müəlliflərin filmlərində alkoqol təkcə stressi yatırmaq üçün deyil, eləcə də qəhrəmanın daxili aləminin açılmasına yönəlik priyomdur. A.Hiçkok demişkən, "Əgər alkoqol danışa bilsəydi, o da insan haqqında çox şey deyə bilərdi". İntuitiv və emprik olaraq tez-tez rejissorlar bu mövzuya əl atır. Alkoqol (burda istənilən növ spirtli içki nəzərdə tutulur) süjetə daxili və xarici təzahür kimi də gələ bilər.

Xon Sonsu özünün sonuncu, "Onun gəldiyi gün" filmində ənənəvi iaşə məntəqəsini təsvir edir. Burada hər dəfə süzülən içki qəhrəmanların müxtəlif vəziyyətilərini əks etdirir, qəhrəmanlar günün istənilən vaxtı içir, əhvallarının yaxşı və ya pis olmasından asılı olmayaraq, filmin interpretasiyasına inansaq, içki ən yaxşı dostu əvəz edir. Rejissor bizi inandırmağa çalışır ki, içki ilə dünya cəhaləti və sevincini yaşamaq olar. Koreyalı rejissor bəlkə də Dekartın məşhur maksimasını özünəməxsus şəkildə bizə belə çatdırır: "İçirəmsə, demək yaşıyıram" Aleksandr Peynin "Yolkənarında" içki, unison təsir kimi qəhrəmanın ətrafında "hərəkət edir" Ailəsini itirmiş yalqız kişi Kaliforniya üzüm tarlalarında özünə iş tapmaq üçün sərgərdan həyat keçirir.

Aki Kaurismiyakinin "Havr" filminin qəhrəmanı Marsel Marks kalvadossuz keçinə bilmir. Rejissor filmin çəkilişləri zamanı hər 100 kadrdan sonra aktyorlara bir stəkan alma brendisi içməyə icazə verirmiş. Onun filmlərində içki içmək ətrafda baş verən prosesləri dərk etmək anlamına gəlir.

Alkoqol mövzusu haqqında danışarkən Otar İoselianini də qeyd etmək lazımdır. Onun filmlərində qırmızı gürcü çaxırını tez-tex görmək mümkündür. Kinotənqidçi Maykl Siçinski Kaurismiyaki və İoseliani filmləri haqqında yazarkən qeyd edir ki, "Bu iki rejissor üçün içki "əsas mütənasiblik yaradan" amildir. Hər bir konflikt kiçik süfrə arxasında həll edilir."

İçki haqqında yəqin ki, ən maraqlı film "İtirilmiş həftsonu" hesab edilə bilər. Bu filmdə Billi Uayler, demək olar ki, alkoqolun həyatda və filmdə tam yerini göstərib. Onun traktovkasına görə, alkoqol bir çox bədbəxtlik və sevinclərin baiskarı ola bilər. İçki sevgili verə bilər, pul verə bilər, amma şöhrəti və hörməti alır.

ALEJANDRO GONZALEZ İNARRİTU

XƏYALİ MÜSAHİBƏ

Onu tapmaq elə də asan olmadı. Bunu öncədən də bilirdik. Mexikoda axtarışlarımız ümidsizliklə sonuclandı. Onu tanıyanlar Alexandronun Mexikoda tapmağımızın imkansız olduğuna inandırdılar. Uzun çək-çevirdən sonra nəhayət ki, rejissorun yerini öyrənə bildik... Və içimizdə közərməkdə olan ümid qığılcımlarını yenidən alovlandırıb, rejissorun olma ehtimalı olan ölkəyə, İspaniyaya gəldik. İnarritunu tapmağımızda bizə yardımçı, rejissorun sonuncu – "Biutiful" filminin qəhrəmanı olan aktyor, Xavier Bardem oldu. Nəhayət ki, rejissorla əlaqə saxlaya bildik. Azərbaycandan gəldiyimizi eşidəndə ilk sualı "Azərbaycanın hansı qitədə yerləşməsi" oldu. Avropa eşidəndə xeyli təəcübləndi. Və bir az tərəddüd sonrası nəhayət ki, bizimlə görüşməyə razı oldu. Məkan isə "Kafka" kafesi idi... İspaniya, İnarritu, Kafka kafesi və azərbaycanlı bizlər...

– Necəsiniz, cənab Alexandro?

– Cənab deməsəniz əla olaram (gülümsədi və anladıq ki, qarşımızdakı insan bizimlə səmimi söhbət etmək əhvalındadır)

– Azərbaycandan sizə salam gətirmişik.

– Mənə telefonda azərbaycanlı olduğunuzu deyəndə, doğrusu, təəcübləndim. Çünki həmin ana qədər belə bir dövlətin mövcudluğundan xəbərsiz idim. Coğrafyanı, tarixi yaxşı bilirəm, amma nədənsə heç bir elmdə ölkəniz haqqında məlumat qarşıma çıxmayıb. Sizinlə danışdıqdan sonra, yəni dünən axşam internetdən Azərbaycan haqda bir az oxudum. Neftiniz, qazınız var və İran, Türkiyə, Rusiya kimi dövlətlərlə həmsərhədsiniz. Amma deyəsən nəsə problemlər də var hansısa dövlət ilə aranızda.

– Doğrudur. Bəs kinomuz, musiqimiz haqda heç vaxt eşitməmisiniz?

– Siz türk mənşəli dövlətsiniz məlumatıma görə...

– Aha...

– Hə, Türkiyənin əla rejissorları var. Nuri Bilge Ceylan, Yusuf Güney... Güneyin "Yol" filmi var, o mənim ən sevimli filmlərimdən biridir. Azərbaycan rejissorları, filmləri haqda, amma eşitməmişəm. Bəlkə də gözəl filmləriniz var, amma məlumatsızam bu barədə.

– Sizə Azərbaycan filmlərindən 1-2 film dvd-si gətirmişik.

– Əla, çox təşəkkürlər. Mütləq baxacağam. (Ona "Şərikli çörək" və "Bizim cəbiş müəllim", "Ölsəm bağışla" adlı filmlərin ingilis subtitrları ilə olan disklərini veririk.)

– Bir az da sizdən, filmlərinizdən danışaq. “Ölüm” trilogiyası necə yarandı?

– “Ölüm” trilogiyası yaranmadan öncə bir qısametraj işləmişdim. 1996-cı ildə. Düzünü desəm maraqlı, həyəcanverici gəlsə də, rejissorluq bir az da ağır gəlmişdi. Düzdü, televiziya ilə uzun illər bağlılığım var, amma kino tamam ayrı sahədir. Sən müəyyən zamana başında olan, torpaqla dolu olan quyunu qazıb, içinə səpilmiş qızılları tapıb tamaşaçıya ötürməlisən. TV şoularda isə məkan anlayışı mövcuddur. Zaman isə reklama, uzun cümlələrə, hər cür zir zibilə hesablanıb. Qısametrajla başlamaq eksperimental xarakterlidir rejissor üçün. Yəni qabın dərinliyi və ölçüsü ilə tanış olursan. Sizə deyim, ətrafımızda, elə bu kafedə o qədər rejissor var ki, ətrafınıza baxın, görün tanıya bilirsiz onları? -Yox. -Niyə? Çünki, onlar öz qablarının nəinki ölçüsünü, həcmini, heç qablarının mövcudluğunu belə anlamayıblar. Anlayıblarsa da, risk etmədən daha asan, daha rahat, daha əlçatan işlərə yönəliblər.

– Sizcə istənilən insan rejissor ola bilərmi?

– Yox, mən elə demədim. İstənilən insan həyata bir peşə ilə gəlir. Əgər hər kəs öz qabını tapsa, ölçüsünü, həcmini bilsə, inanın, dünya dəyişər.

– Bu qədər optimist təsəvvür etmirdik sizi...

– Haha (ucadan gülür)... Jurnalistlərin hər biri adətən, mənimlə söhbətdə belə deyirlər. Bilirəm təsviriniz nəyə görə formalaşıb. Filmlərimə görə. Amma filmlərimdə siz tamaşaçılar pessimizm, ölüm və s. görürsüz. Əslində filmlərimin hər birində optimizm var. Mən ölümü son olaraq təsvir etmirəm. Mənim düşüncəmdə ölüm doğuluş qədər gözlənilməndir.

– Maraqlıdır... Sizin ilk tammetraj filminiz “Amores Perros” olub. Hər rejissorun imza filmi olur filmoqrafiyasında. Necə düşünürsüz, imzanızı atmağa tələsmədiz?

– (Bir qədər düşünür)... Elə deməzdim. “Amores Perros” la mən, mənə, görə sevginin necə bir hiss olduğunu göstərdim. Heç kimin fikir vermədiyi reallıqları, insan talelərini toqquşduraraq. Film itlərin üstündə cərayan edirdi, eyni zamanda da film boyu bu bağlılıq undulurdu. Filmin uğurunun səbəbi yetəri qədər səbrli olmağımızdır. Mənim imza filmimi kinodan getdiyimi açıqladıqdan sonra təyin etmək mümkün olacaq. Hələ ki, bu haqda düşünmürəm...

– “Amores Perros”, “21 grams”, “Babel”dən sonra “Biutiful”.... Tərzinizdən niyə bezdiz?

– Fərqlilik istədim bir qədər. Amma haqlısız bezdim... “Biutiful” bütünlükdə Bardemin çiyinlərində oturdu. O isə əla aktyordur. Nə vaxtsa mütləq yenə onunla işləmək istəyərdim.

– Bir az da dünya kinosundan danışaq. Hansı filmlərə baxırsız?

– Düzün desəm, filmə baxmağa vaxtım çox azdır. Çünki çox xırdaçıyam və bir işə başladımsa, o iş bitməyincə rahat ola bilmirəm. Rahat olmadan filmə baxa bilmirəm. Son baxdıqlarımdan Trierin “Antichrist”ini, Terens Malikinin “Tree of life” filmləri olub. Hər ikisi əla filmlərdir. Terens Maliki usta rejissordur. Bu filmə sadəcə film demək olmaz. Çünki filmdə zaman, məkan anlayışını bu rejissor yox edib.

– Sevdiyiniz, bəhrələndiyiniz rejissorlar kimlərdi?

– Antonioni, Bergman, Tarkovski, Ozu, Fellini, Kiarostami, Pazolini, Trier, Maliki, Tarr, Kieslovski, Almodovar, Carmuşu deyə bilərəm...

– Əla! Sirr deyilsə “Kafka” kafesini nədən seçdiz?

– Sevdiyim yazardır. Onun “Kənd həkimi” hekayəsi var. İlk dəfə oxuyanda heç nə anlamamışdım, amma bir neçə ay sonra təkrar oxudum və deyərdim, dünyanın ən yaxşı hekayələrindən biridir. Qəribə həyat yaşamış bir insan olub. Yazıları qədər sirli, möcüzəvi...

– Sonda oxucularımıza deyəcəyiniz sözünüz varsa, buyurun...

– Təşəkkür edirəm sənətə olan sevginizə görə. Jurnal haqda məlumatlandım və bu cür kino sevgisi olan insanları – sizi və oxucularınızı

ÇAĞAN IRMAK

FİLMOQRAFİYA



01 Rejissorun ilk uzun metrajlı filmidir. Onur kiçik bir tort dükanı işlədir. Hər gün bir çiyələkli tort bişirir, amma satmır. O , tortu ilk aşiq olacağı insana saxlayır. Bir gün dükana çəkiliş məqsədi ilə Burcu Burkan gəlir. Bu tanışlıq iki fərqli həyata sahib olan insanların yaxınlaşmağına fürsət verir. Lakin Burcunun bir sirri vardır...

02 Özünə qapalı, münasibət qurmayan lisey şagirdi Bahadır bir sabah oyananda dünyanı dəyişdirməyə qərar verir. O, səhər məktəbə gedərək belinə taxdığı silahla sinif yoldaşlarını əsir götürür. Onlara qorxulu anlar yaşadaraq həyatları boyunca özlərini ən çox yaralayan xatirələrini danışmağı istəyir. Şagirdlərin danışdığı hekayələrdən yola çıxan "Bana şans dile" aksiyon-gərginlik tərzindədir.

03 Mustafa hər işində mükəmməli istəyən bir reklam işçisidir. Fikret isə sıradan bir taksi şoferidir. Mustafanın həyat yoldaşı Fikret ilə bərabərkən keçirdiyi qəzada dünyasını dəyişir. Mustafa isə o günə qədər görmədiyi Fikrətin arvadı ilə niyə birlikdə olduqlarını öyrənə bilmək üçün Fikreti dağ evinə qaçırdır və günlərlə müxtəlif yollarla arvadı ilə Fikrətin arasındakı münasibəti aydınlaşdırmağa çalışır.

04 Sadık fermanı universitetdə jurnalistika təhsili almaq üçün tərk edir. Atası Hüseyin onun əkinçilik mühəndisliyini oxuyub fermanın idarəsini ələ almağını istəyir. Sadık hələ universitet illərində siyasətlə yaxından maraqlanır. Atası Sadıkı övladlıqdan rədd edir. 70-ci illərdə bir çox siyasi hadisəyə qarışan Sadıkı çətin günlər gözləməkdədir. 1980-ci ilin 12 sentyabr günü həyat yoldaşının doğum sancıları başlayır. Küçəyə çıxan cütlük xəstəxanaya getmək üçün vasitə tapa bilmirlər, çünki ölkədə hərbi çevriliş gerçəkləşdirilmişdir. Doğum zamanı həyat yoldaşını itirsə də oğlu Dəniz sağ qalır. Həbsxanada yatdığı illərdə gördüyü işgəncələrdən səhhəti pozulan Sadık xəstəliyinin ölümcül olduğunu anlayır. Dənizi anasının və danışdırmadığı atasının yanına aparır. Sadıkla atasının keçmişdə yaşadığı hadisələr onlar üçün olduqca sıxıntı yaradacaqdır. Film 2006-cı il Beynəlxalq İstanbul Film Festivalında Ən yaxşı film (Çağan Irmak), Ən yaxşı kişi oyunçu (Fikret Kuşkan), Ən yaxşı qadın oyunçu (Şerif Sezer), 2006 Nuremberg Film Festivalında (Almaniya-Türkiyə) Ən yaxşı film (Çağan Irmak) mükafatlarına layiq görülmüş dür.

05 Zamanın olmadığı bir yerdə, xəritə üzərində harada olduğunu bilmədiyimiz adsız bir kəndə bir səyyah gəlir. Yorğun səyyah, bir ulakdır. Danışacağı hekayələri vardır, söyləyəcək sözləri... Hekayələrini ən çox uşaqlar sevər. Qüsursuz bir xəyal gücü ilə yazılmış bu cadulu və ürküdücü hekayələr Çapar Zəkəriyyənin dilində əfsanəvi dastanlara çevrilərlər. Uşaqların sevdiyini böyüklər sevməz əlbəttə, ya da tam tərsi. Kənd xalqı Zəkəriyyənin gətirdiyi sirləri daşıya bilməz, sirli bir sis çökər kəndin üzərinə ...

06 Alper, qurman deyiləcək səviyyədə yemək mədəniyyəti olan öz restoranının sahibi bir aşbazdır. Lüks yaşamağı sevən, işində müvəffəqiyyətli olan Alper hər gününü fərqli qadınla keçirərək şəxsi həyatını nizama sala bilməmişdir. Ada, Taksimdə uşaq kostyumları hazırlayıb tikməklə məşğul olan, Alperin müasir həyatının əksinə çox təvazökar, həyatda çox enişçıxışları olmayan gənc bir qızdır. Bir gün köhnə bir kitabı tapa bilmək üçün Beyoğlunda



gəzərkən Alper ilə Ada eyni kitab evinə girərlər və eşq ilə ziddiyyətli həyat onlar üçün başlamış olar.

07 Egemen 30 yaşını keçmiş bir reklam agentliyində ofis-boy olaraq işləyən bir gəncdir. Yaşının irəliləməsinə baxmayaraq anası Gülseren xanımla birlikdə yaşamaq məcburiyyətindədir.

Anası ilə birgə keçirtdiyi həyat onun üçün cəhənnəm kimidir. Egemenin bu cəhənnəmdən uzaqlaşaraq rahat nəfəs aldığı tək yer çalışdığı şirkətdir. Digər tərəfdən müdiri Umaya qarşı müəyyən hisslər bəsləsə də, anasının varlığı onun önündə əngəldir.

08 Bir kitabxanada məmur olaraq çalışan Əziz öz kiçik dünyasında sakit və dinc bir həyat davam etdirməkdədir. Bir gün, məhəlləyə yeni açılan bərbərin sahibi Seçil və 10 yaşındakı qızı Gizem, Əzizin yaşadığı mənzilə köçür. Əzizin yeni qonşularıyla rənglənən həyatı, kiçik qızın uzun yuxusuyla kölgələnər. Gizemin yuxusunun tətiklədiyi tam fərqli hadisələrlə, sıravi görünən, amma əslində rəngarəng xarakterlərə sahib bu insanlar birlik olub, qədəri dəyişdirməyə çalışırlar.

09 Ozan - Egeydə kiçik bir sahil qəsəbəsində yaşayan 10 yaşında bir uşaqdır. Girit immiqrantı babası Mehmet bəy səbəbiylə yoldaşları onunla "gavur" deyərək lağ etməkdədir. Tək qalmaqdan qorxan Ozan, başda babası olmaq üzrə ailəsinə hirslənər "Biz Türkük." deyərək onlara qarşı çıxar.

Ozanın babası Mehmet bəy, qəsəbədə hörmətli bir adamdır. Qəsəbə xalqına qol qanad gələr, problemləriylə maraqlanıb, onlara kömək edər. Mehmet Bəy nəvəsinin bu vəziyyətinə görə narahatlıq duyur. Mehmet bəy daha yeddi yaşındaykən, ailəsi zorla torpaqlarından qoparılmış, Giritdən köçmüşlər. Mehmet bəyin ən böyük arzusu ölmədən əvvəl doğulduğu torpaqları görə bilməkdir. Bu həsrətlə tez-tez içində məktublar olan şüşələri Egeyin mavi sularına buraxmaqdadır.



Çağan Irmak 4 aprel 1970-ci ildə İzmirdə doğulub. Uşaqlıq illəri Səfərihisarda keçən rejissor Ege Universitetinin Radio-Tv fakultəsindən məzun olub."Asmalı Konak" adlı televiziya serialı ilə tanınmağa başlayan Çağan Irmak daha sonra "Çemberimde Gül Oya" serialını yazdı və rejissorluğunu etdi.

THOMAS NEWMAN

BƏSTƏKAR BİOQRAFİYASI

Tomas Nyuman (Thomas Newman) hələ doğulmamışdan artıq hamı bilirdi ki, o, bəstəkar olacaq. O, 1955-ci ildə bəstəkar ailəsində dünyaya gəlmişdir. Atası, qardaşı, əmiləri bəstəkar idilər və məhz filmlərə musiqi bəstələyirdilər. Sanki Tomas da ailə ənənəsini davam etdirmək üçün bəstəkar olmağa məcbur idi və məhz filmlərə musiqi bəstələməliydi.

O, Hollivudda böyümüşdü, hələ uşaq yaşlarından skripka və fortepiano dərsləri almışdı. Tomasın məşhur bəstəkar olması üçün tale onu təkcə Nyumanlar ailəsində doğulmaqla mükafatlandırmamışdı, həm də onun qarşısına Hollivudun film musiqilərinin allahı sayılan Devid Raksini çıxartmışdı. Ç.Çaplinin köməkçisi kimi çalışmış, sonralar "Laura" filminə yazdığı musiqi ilə məşhurlaşan D.Raksin, o dövrün Hollivud dahilərindən sayılırdı. Tomas Nyuman Cənubi Kaliforniya Universitetində (USC) D.Raksindən dərs almış, daha sonralar Yale Universitetində magistr dərəcəsinə yüksəlmişdi.

Fox studiyasında musiqi rəhbəri olan əmisinin köməyilə erkən yaşlarından təcrübəyə başlayan bəstəkarın ilk işi, "Ulduz müharibələri 5" filmində

"Ceyanın qayıdışı" fraqmentinə Con Uilyamsın bəstələdiyi musiqini aranjeman etmək idi. İllər sonra öz ilk işini heç vaxt unutmadığını deyən T.Nyuman, əslində işinin çətin olmadığını və dahi bəstəkarla əməkdaşlıq etməkdən duyduğu qürur hissinin onun gələcək sənət yolunda həlledici məqam olduğunu vurğulayırdı.

Nyuman musiqi karyerasına Brodveydə tamaşa və müzikllara musiqi bəstələməklə, "Tokio 77" və "The Innocents" qruplarında ifa etməklə başladı. Qrupların əsas repertuarını avanqard musiqi növləri – elektron və psixodelik musiqilər təşkil edirdi.

Nəhayət, 1984-cü ildə dönüş nöqtəsi baş verdi, prodüsser Skott Rudin "Reckless" filminə musiqi yazmaqla onu əməkdaşlığa dəvət etdi. Məhz bu iş birliyi Tomas Nyumanın böyük ekranda debütü hesab olunur. Həmin ildə bir-birinin ardınca "Revenge of the Nerds" və "Grandview" filmlərinin musiqi tərtibatına cəlb olunsa da, Hollivud gənc bəstəkarın istedadını etiraf etməyə tələsmirdi. Yalnız bir il keçdi və Madonnanın baş rolda çəkildiyi "Desperately Seeking Susan" filminin musiqisi üzərində işlədikdən sonra onu özünkü saydı.

Tomas Nyumanın digərlərindən fərqlənən özünəməxsus stili vardı. Bu yenilik də 80-ci illər və 90-cı illərin əvvəlinin bütün kinostudiyalarının qapısını onun üzünə açdı. Həmin vaxtlarda onun musiqilərini müxtəlif filmlərdə və yüngül komediyalarda eşitmək olardı; məsələn, "Jumpin Jack Flash" (1986), "The Lost Boys" (1987) və ya "Welcome Home, Roxy Carmichael" (1990) və s. Eləcə də 1984-90-cı illər arasında yazdığı "Girls just want to have fun", "The man with one red shoe", "Real genius", "Naked tango" və digər neçə-neçə filmdə özünü təsdiqlətməmişdi.

Nyuman 90-cı illərin əvvəllərində dram filmlərinə bəstələdiyi musiqilər hesabına Hollivudun "qaymaqları" sırasına daxil oldu: "Fried Green Tomatoes" (1991), "The Player", "Scent of a Woman", "Whispers in the Dark" (1992), "Little Women", "The Shawshank Redemption", "The War" (1994). Bəstəkar özü musiqidə ən böyük nailiyyəti "The Player" filmini hesab edir. Adı çəkilən filmlər Nyumanın mövqeyini möhkəmlətdi, onu "mükafat yağışına" tutdu. "Little Women" və "The Shawshank Redemption" Oskara nominant oldu. Bununla da Tomas Nyuman məşhur bəstəkara çevrildi və ona psixoloji filmlər, iddialı və kommersiya güdməyən kinolar etibar olundu: "The Horse Whisper", "Meet Joe Black" (1998), "Green Mile" (1999).

Sem Mendesin "American beauty" (1998) filmi üçün Nyumanı əməkdaşlığa dəvət etməsində təəccüblü heç nə yox idi. Çünki Nyumanın musiqiləri düşüncə və eyni zamanda hissləri özündə ehtiva etməklə bir bütövlük yaradır. Bu birlik tamaşaçını heyran etdi, amma Oskar almadı. Nyumanın bu əsrarəngiz işi BAFTA ilə mükafatlandırıldı və təbii ki, fəth etdiyi milyonlarla tamaşaçı ürəyi...

"American beauty" filminin uğuru bəstəkarın öz stilini təsdiqlətdi və bundan sonra artıq yüzlərlə film içindən onun musiqilərini asanlıqla seçmək olardı. Təsadüfi deyil ki, 2002-ci ildə yenidən Sem Mendeslə birgə işlədiyi "Road to Perdition" filmi ilə Oskara layiq görüldü.

O, tez-tez elektron musiqi ilə sintezi sınaqdan keçirirdi. Nyumanın fikirlərinin sonsuz uçuşu və həm də həzin melodiya, paradoksallıq və həm də emosional çıxış, bütün bunlar ekranda yaşananlarla, ən xırda bir epizodla belə vəhdət təşkil edir.

Layiq görüldüyü çoxsaylı yüksək mükafatlar bunu bir daha sübut edir. Fərqi yoxdur, bu, serialdır (“Boston Public”, “Six Feet Under”), yoxsa film süjetidir (“White Oleander”, “Angels in America”, “Lemony Snickets A Series Of Unfortunate Events”, “Jarhead”) və ya animasiya filmidir (“Finding Nemo”, “WALL-E”).

Hələ ki keçmiş partnyoru Sem Mendesin “Skyfall” filminə bəstələdiyi musiqi ilə sonuncu Oskarın sahibi olmaqla, Tomas Nyuman bu gün də dünyanın diqqət mərkəzindədir.

Nyuman musiqisi təkcə filmlərdə səslənmir. Onun bəstələrinə musiqi dünyasının nümayəndələri Olimpiya oyunlarının açılış və bağlanış mərasimləri kimi dünya miqyaslı tədbirlərdə müraciət edirlər.

Məsələn, populyar musiqi ulduzu Seal, öz “My vision” mahnısında “The Shawshank Redemption” filmindən “Brooks Was Here” fortepiano melodiyasını istifadə etmişdir. Ohayo ştatı Klivlend şəhərinin əsası qoyulmasının yubiley tədbiri üçün xüsusi əsəri də məhz Nyuman yazmışdır.

Tomas Nyuman Hollivudun şübhəsiz ən maraqlı yaradıcı şəxsiyyətlərindən biridir. Heç kimin bacarmadığı – istedad və kommersiyanı birləşdirən bəstəkardır. Onun musiqiləri, bəstəkarın yaradıcı naturasını ortaya qoyan intriqa və eksperimentlərlə doludur. Çoxları bəstəkarı klişelərə, melodiya təkrarçılığına görə tənqid edirlər. Bununla belə, onun musiqisi bütün dünyada tanınır və sevilir.

CARLOS REYGADAS

REJİSSOR MÜSAHİBƏSİ

Karlos Reygadas müasir müəllif kinosunun ən parlaq adlarından biridir. Onu bəzən "müasir Tarkovski" adlandırırlar. Bu müsahibə 65-ci Kann kinofestivalı zaman alınıb. "Qaranlıqdan sonra işıq" filmi ona bu festivalda "Ən yaxşı rejissor" mükafatını qazanıb.

“Qaranlıqda sonra işıq” – razılaşın ki, sadə film deyil. Yəqin siz, artıq anlaşılmayan obraz və süjetlər haqqında çox suallara cavab vermisiniz.
Xeyr, əslində hər şey qaydasındadır. Çünki mən bu il çox az əhatəyə müsahibə verməyi planlaşdırıram. Əslində mən film haqqında hər sualı cavablandırıb onun “açarlarını” hamıya təqdim etməli deyiləm. Mən özümə, filmimə və tamaşaçılara hörmət edirəm.
Bəs siz filminizin təqdimatının səhəri günü hər hansı mənfi resenziya və ya səhv interpretasiya ilə qarşılaşanda nə hisslər keçirirsiniz?
Demək olar, heç bir! Bunlar məni çox da təəccübləndirmir. Bir günə və ya bir dəfə izləməklə filmə necə qiymət vermək olar? Əsla iddia etmirəm ki, mənim filmim şedevrdir. Amma biz bir az gözləməliyik. Seneka demişkən, əsər mükəmməldirsə onun qiyməti zamanla veriləcək. Məsələn, mən sizə sonsuz misallar gətirə bilərəm, Folkner, Kafka, Coys... İddiam da yoxdur ki, mən ikinci Folknerəm. Amma belə bir misal götürək: impressionistlər meydana gələndə onlar haqqında yazırdılar ki: “Bunlara nə olub? Niyə onlar yaşıl sifətlər çəkirlər? Niyə proporsiyalar kəskin fərqli verilir?” Bu baxımdan mənə də suallar verilir “Niyə bir kadrdan o birisinə keçidlər kəskin fərqlənir? Görüntü bulanıqdır?” Bəlkə də mənim filmim on ildən sonra kino tarixinin bir yeşiyinə atılacaq və ya əksinə. Bilmirəm. Amma mənə istənilən zamanda axmaqların fikri maraqlı gəlməyəcək.
Onda, gəlin, filmin ideyası haqqında danışaq? Bu film nədən bəhs edir?
Əlbəttə, danışaq. Əvvəla

məni düzgün başa düşün, mən həyatda rast gəldiyim qısa əhvalatları heç vaxt süjetə gətirmirəm. Səhnələrim müəyyən bir struktur və məna yükünə əsaslanır. Bəziləri üçün bunu qavramaq çətindir, onlar film bitər-bitməz mənanı başa düşməyə çalışır. Amma bunun üçün zaman lazımdır. Ən azı mənim yozumum belədir.
Filmlərinizdə Şər və Xeyir qarşıdurmaları olur. Bunun Şərq fəlsəfəsinə sevgidən irəli gəldiyi məlumdur. Amma özünüzü qərbli sayırsınız.
Düzdür, amma mən traktovkalarımda ayrı-seçkiliyə yol verməməyə çalışıram. Bilirsiniz, dini mistikanı filmdə vermək olduqca çətindir, burada söhbət əlbəttə ki, xristianlıqdan gedir. Əvvəlcə, o, çox yaxşı ideya idi, lakin sonradan hər şey dəyişdi. Ona görə də mən kilsələrə getmirəm.
Öz başlanğıcında kino eksperimentlərə daha çox açıq idi. Lakin sonradan narrativləşmə getdi. Ola bilərmi ki, bu yenidən geri qayıtsın?
Eləmi? Başlanğıcda kino daha çox azad idi, lakin o vaxt ki amerikan biznesi kinoya gəldi, o, gəlirli sahəyə çevrildi, hər şey kökündən qopdu. Bu yüz illik tarixinin nəticəsi idi. Amma indi dəyişilməyə doğru getmək hiss olunur.
Niyə filmləriniz köhnə lentləri xatırladır?
Filmlərin onlara lazım olan formatı aldığına görədir. Mən əvvəldən belə olacağını düşünmürəm.
“Qaranlıqdan sonra işıq” filmində sizin həyatınızla bağlı xeyli hadisələr var: orada eviniz, ailəniz, uşaqlarınız görünür.
...və itim də
Uşaqlar niyə?
Onlar həm qaranlıqdan əvvəlki, həm də sonrakı işıqdır...

DECALOGUE: 10 FİLM

KAMERANIN ŞAİRİNƏ DƏRİN HÖRMƏTLƏ

Ogözəl yazılmış 10 cümləni yeniləmək istədik deyir Kieslowski. Mən də o gözəl çəkilmiş 10 filmi yeniləmək istəyirəm.

Inandığınız şeyə o qədər yaxınlaşa bilərsiniz ki, ayaq saxlayıb düşünmədən, möcüzə axtarmadan inandığının hər hərəkətini möcüzə sayaraq. İnandıqları üçün xoşbəxt olan bir çox insan tanıyıram çünki.

-Tanrıya inanırsanmı? O haradadır ki ?
-Qucaqla məni. Nə hiss edirsən?
-Səni sevirəm.
-Tanrı bax indi buradadır.

Yoxluq vardırmı? Sıfır ən son tapılan rəqəm deyilmi? Var olmadan yox olarmı? “1” olmadan “0” mümkündürmü?

Alimin mürəkkəbi müqəddəsdir, həm də arifmetik hesablamalarla önləyə bilmədiyi uşağın ölümü ilə dağılmağa məhkumdur. Ağılın cəzasını vücud çəkər. Bəlkə meterologiya səhv eləmişdi, ya da buz anidən ərimişdi… Kieslowski bu qədər bəsitmidir ki ?

Varlığını anlamaq üçün üst-üstə gəlməlisən. Ailəni, sevgilini, peşəni... Amma anladıqdan sonra çıxmazsan üstünə gəldiklərin bütləşər. Nəfs varkən çətindir, böcəyin stəkandan qurtulma mücadiləsi kimi.

Yalançı yalanı söyləyə bilməyənə deyilir, qadın sevgilisinə, ər arvadına, adam da bizə yalan danışdığı kimi. Tanrı sözü böyüklərin dilində kiçikləri aldatmaq üçün vasitədir, eyni uşaqlığımdakı kimi.

Hər düşdüyü nöqtədə dövləti, ümumən başqalarını günahlandıran insanları sevmirəm, hətta nifrət edirəm, amma atam da elədir. Məni daim yoxlayan, sual soruşan, üstümə düşən insanları sevmirəm, amma anam həyatımdakı belə insanların ən başlıcasıdır. Bəzi şeylər istənməsə də, edilməlidir. Ana və atana hörmətsizlik etməyəcəksən. Vəfa borcu budur.

Insan ölümdən də zövq duyar. Heç mi balıq tutmadınız? Səbəbsiz yerə öldürməyə səbəbsiz yaşayan ölümlü seçilir. Arvadının hazırladığı çörəkləri itə layiq bilən biri. Ancaq ədalətli olan, böyük ehtimalla, qanuni deyildir. Məhkəməyə düşən artıq insan deyil, rəqəmdir. Müzakirə olunan artıq insanlıq deyil, cinayət məsələsidir.

-Səni sevirəm.
-Nə istəyirsən ?
-Heç
-Mən yaxşı insan deyiləm
-Önəmli deyil, səni sevirəm.

Bir insanın düşüncələri onun həyatını anladır. Qadın həyatda iki dəfə gözəl olur, ya sevəndə, ya da öləndə. Tək bir erotik hərəkət göstərmədən erotizmin həyatımızdakı yeri, göyü qucaqlayan şiddətini tamaşaçıya anlada bilmək...

-İnsan niyə ağlayar ?
-Biri öldüyündə, yalnız qaldığında, yükünü daşıya bilməyəndə.
-Çarəsi yoxdurmu?
-Bir dəfə Marçinin dişi ağrıyırdı. Utünü isidib çiyninə basdı, beləliklə dişinin ağrısını unutdu.

Heç bir sosial-siyasi məqsəd kiçik bir qızın həyatından önəmli deyildir. Vəziyyət yalan yerə şahidlik etmək tələb etsə belə.

Uşaqkən böyüklərin şəhadət barmağını tutardım... Ana qızının doğduğu uşağı oğurlayır, qız da ananın böyütdüyü. Uşaq anaya ana demir. Kişilər ədalətli, qadınlar xeyirxah, uşaqlar isə amansızdır çünki. Qumarbazlar da pul itirməkdən ziyadə öz ağılsız cəhdlərinin boşa çıxmasına təəssüf edirlər Ania kimi. Oğurluq sadəcə maddi olaraqmı mümkündür? Sevgi, hörmət, sədaqət... oğurlana bilməzmi? Bax, ana qızının uşağına bəslədiyi sevgini öz qızından oğurlayıb.

-Yazılarında Tanrıya rast qəlmədim.
-Tanrı kəlməsini istifadə etmədən də hiss edə bilərsən.

Ərin arvadını onu aldatdığı üçün günahlandırmasını gözləyirsən, tərsi olur. İnsan, aldatma hərəkətini ərin arvadını başqa bir kişi ilə tutmasında deyil, əslində birlikdə qərarlaşdırdıqları bir şeyi bir-birindən gizləmələrində axtarmağa məcbur qalır.

Ölü balıqlar ölüm xəbərini yetirir bizə…Böyüyüncə itirdiyiniz uşaq saflığını yenidən əldə etmədən anlamağın mümkün deyil qardaşları. Zəhmət çəkmədən əldə edən, gözlənilmədən itirər, həm də azdan da olar. Səbri öyrənəcəksən, tələsmədən, qarşılıqlı sədaqəti unutmadan yenidən quracaqsan kolleksiyanı.

Decalogue`u bütöv bir film kimi düşün. Əvvəlcə oxunduğu, sonra həll edildiyi, daha sonra isə nəticənin kitabın arxasındakı cavabla örtüşmədiyinin kəşf edildiyi riyaziyyat məsələsi kimi. Sən filmin “belə” bitəcəyini gözləyərsən, “elə” belə bitməz. Fikirləri zorla qəbul etdirməz, suallar soruşar sadəcə, izləyicisi qədər cavabları olan...


Kameranın şairinə dərin hörmətlə...

SEN AYDINLATIRSIN GECEYİ

ŞAİRİN ŞEİR FİLMİ

Bilmirəm, bu hamıda belədir ya necə, hansısa filmə baxanda, hansısa kitabı oxuyanda, musiqini dinləyəndə - bütün bunlar müəllifin tanış olduğum ilk işidirsə və xoşuma gəlmirsə, istər istəməz həmin müəllifə qarşı önyarğı yaranır məndə. Bunun yanlış olduğunu bilirəm, amma belədir, elə bilirəm ki, müəllifin digər işləri də elə-belə, məni cəlb etməyəcək.

Onur Ünlüdən yazacğam. Onun "Celal Tan ve ailəsinin aşırı acıklı hikayesi" filmini izləmişdim ilk dəfə. Filmi bəyənmədim. Mövzu mənə klişe gəldi niyəsə. Sanki mən hadisələrin sonunu təxmin edəcəkmişəm, sanki mən bu dialoqlara, hadisələrə nə vaxtsa şahid olmuşam təsiri bağışladı. Önyarğıya qapıldım və Onur Ünlü filmləri izləmədim. Keçən həftələrdə isə Onur Ünlünün sonuncu filmi "Sen aydınlatırsın geceyi" filmini izlədim. Film vizyona girməyəcək. Bu da rejissorun özü demiş, film dünyasına və düşmənlərinə etirazıdır. Rejissor filmini götürür və şəhər-şəhər gəzərək universitetlərdə, gənclərin yaratdığı klublarda izləyici ilə görüşdürür. Hər halda mən özümü o filmə baxa bilmiş şanslı insanlardan biri kimi görürəm. Filmi barədə, hələ çox insan izləmədiyi üçün çox bilgi verməyəcəm. Başlayaq.

Onur Ünlü bildiyimiz kimi Ah Muhsin Ünlü imzası ilə şeirlər yazan həm də şairdir. Filmdə Onur Ünlünün Şekspirdən ilhamlandığını düşünürəm. Çünki izlədiyim hər iki filmində Şekspirin şeirləri, misraları var. Elə bu filminin adı da Şekspir misrasıdır.

Film, komik, dram və azacıq da fantastikdir. Amma bu fantastika izləyicini narahat etmir. İzləyici dramatizmi yaşayır, gülür və həm də maraqda qalır. Janrlararası keçidlərdə qopuqluq yoxdur. Film, Camal (Ali Atay) və Yasəmənin (Demet Evgar) sevgisindən bəhs edir. Camal və Yasəmən təsadüfən tanış olurlar. Filmdə xarakterlərin demək olar ki, çoxunun hansısa özəlliyi, fövqəltəbii gücü var. Divarın arxasını görmək, güzgüdə görünməmək və ancaq güzgüdə görünmək, zamanı durdurmaq və ölümsüzlük kimi xüsusiyyətlərə malik xarakterlərlə qarşılaşırıq. Filmdə istifadə edilən musiqilər də filmin həzin tonunu qoruyur. İnsanın filmə qarşı olan hisslərinin balansını pozmur. Ağ-qara olan filmdə görünən tək rəng qırmızıdır. Film Onur Ünlü tərzi deyil. Və özünün də dediyinə görə, etmək istədiyi tərz dəyişikliyi və izləyicini yoxlamaq deyil.

Filmdə Yasəmənin qohumu olan və yataq xəstəsi bir kişi görürük. Amma filmlə əlaqəsi yoxdur. Sadəcə Yasəmən ona baxır. Rolu sadəcə yatmaqdır. Onur Ünlü xərçəng xəstəliyinə görə müalicə alır. Anası da eyni xəstəlikdən rəhmətə gedib və anası haqqında yazdığı bir şeirdə, anasının da yataq xəstəsi olduğunu anladan misra var. Filmdəki o yataq xəstəsini görəndə yadıma elə rejissorun özü və anası düşdü. Görəsən filmdəki rolu sadəcə yatmaq olan o xəstə əslində kim idi? Rejissorun anası, ya xəstə psixologiyası ilə o xəstənin əslində özü olduğuna vurğu edirdi?

Ümumiyyətlə, rejissor bunu təkzib etsə də məhz bu film şeirin özüdür. Biz şeir oxuyuruq və pitoresk sayəsində şeir gözümüzdə canlanır. Bu film də Şekspir şeirinin, misralarının Onur Ünlü gözündəki canlanışıdır. Filmdə zamanı durduran qız var. Şekspirin belə bir misrası var: "İki əlimi bir-birinə qovuşdurub dondursam elə bu anı, deyə biləcək heç nəyim yoxdur. Onsuz da yalnızlıq elə belə bir şeydir". Rejissor şeiri çəkib yəni. Bu gözəldir. Bir də filmdə Camal, həyat yoldaşı Yasəmən üçün Şekspirin bu şeirini oxuyur:

"Yarayla alay eder yaralanmamış olan
Bak nasılda sararıp soluvemiş tanrıça kederden
Sen ondan çok daha parlaksın çünkü
Sen! Tüm göklerin en güzel yıldızların ilki
Sen aydınlatırsın geceyi"

Filmdə məkan olaraq Onur Ünlünün uşaqlığının bir qisminin keçdiyi babasının evindən də istifadə edilib. Həm də filmdə hər səhnədə gördüyümüz hər üç xarakterin də – Camal, Yasəmən və zamanı durduran qızın anası yoxdur, ölüb. Camal ana həsrəti çəkir daim. Görəsən Camal, əslində Onur Ünlünün özüdür? Şeirlərindən anasına bağlı olduğunu anladığımız Onur Ünlü də ana həsrəti çəkir.

Filmdə fövqəltəbii gücü olan xarakterlər hansısa problemlə üz-üzə qalanda o güclərindən istifadə etmirlər. Həmin problemi yaşayırlar. Çarəsizlik... Müsahibəsində də belə deyir: "İnsanın çarəsizliyini göstərmişik". Həm də film başlayanda da Euripidesin sözüylə başlayır: "İnsan, endişeden yaratılmıştır". Narahatlıq elə çarəsizlik deyilmi?

Filmin mistik yanı da var, məncə. Göydən daş düşməsi, xarakterlərinin birinin gözündən daima göz yaşı yerinə qan axması, div boyda adamın olması və uçmaq. İstəyin, arzun,sevgin gerçəkləşəndə uçmaq...

Xüsusilə göydən daşların yağdığı səhnənin mistisizmlə açıqlamaq olar: Camal evlidir və zamanı durduran qız onu öpəndə, göydən daş yağmağa başlayır. Xəyanətə cavab ola bilərmi göydən daş yağması? Filmin məkanının da qəsəbə olduğunu nəzərə alsaq, heç də əbəs ehtimal deyil, fikrimcə.

Müsahibəsində Onur Ünlü belə deyir: "Filmi başqa bir şeylə əvəz edə bilməzsən. Filmi film kimi etmək lazımdır. Yəni əvəz etmək olmur. Kim nəyi necə ifadə edə bilirsə, elə də ifadə edir. Bir adam bir şeyi film çəkmədən ifadə edə bilsəydi, film çəkməzdi". Bu sözləri mənə Cəfər Pənahinin "Bu, bir film deyil" sənədli filmində çarəsizliklə dediyi "Filmi anlada biliriksə, niyə çəkirik ki? Anlada bilmədiyimiz üçün çəkirik" cümlələrini xatırlatdı. İki fərqli rejissor eyni fikirdədir. Deyəsən, bu yol məsələsidir. Ya da həqiqət. Yəni nə qədər də gerçəyin nisbi olduğunu desək də, əslində, bəlkə də həqiqət nisbi deyil. Yol birdir.

Bu filmə Onur Ünlünün gündəliyi deyirəm mən və qismən də belədir. Filmdə Onur Ünlünün şair və övlad yanı var. Onun şairliyi barədə "şeirlərindən qatar keçən şair" desələr də, inanıram ki, bu filmi izləyənlərin sayı çoxaldıqca şeir kimi bir cümlə ilə onun rejissorluğunu ifadə edəcəklər.



LASLO KRASNAHORKAİ

ƏN GECİ TURİNDƏ



Macar yazıçısı Laslo Krasnohorkai, rejissor Bela Tarrın filmlərinin daimi ssenaristidir. “Lənətlənmişlər”, “Sonuncu” gəmi”, “Şeytan tanqosu”, Verkmaysterin harmoniyası” (“Müqavimətin melanxoliyası” romanı əsasında), “Turin atı” (“Ən geci - Turində” essesi əsasında”) filmləri məhz bu iki macar ssenarist və rejissorun əməkdaşlığı sayəsində meydana gəlib.

100 il bundan əvvəl, 1889-cu ilin, bəlkə də, bu günə bənzər bir günündə Niçşe Turin, Via Karlo Alberto6 ünvanındakı evinin qapısından gəzmək, ya da poçtdan məktub götürmək məqsədilə çıxır. Yaxınlıqda bir faytonçu tərs bir atı aciz qeyzlə bizləyir. O, atı tələsdirir, ancaq əbəs yerə: heyvan yerindən belə tərpənmir. Rəiyyət- Cüzeppe Karlo Ettore -hövsələsini basa bilmir və heyvanı qamçı ilə vurmağa başlayır. Deyilənə görə, Niçşe hiddətlənir və qəddar tamaşaya son qoyur, belə ki, artıq hadisənin təşəbbüskarı özü də qəzəbdən köpük içində idi. Qalın bığları olan hündür cənab isə gözlənilmədən ata tərəf sıçrayır və - zənnimcə, ağzını ayrıb heyranlıqla baxanların gizli məmnunluğuna rəğmən - hönkür-hönkür ağlayaraq atın boynuna atılır. Hadisə yerində olan bir müdir coşmuş Niçşeni evə ötürür, o isə dinməzcə taxtın üstünə uzanır və iki ay hərəkətsiz qalır, daha sonra öz son sözlərini ("Ana, mən necə də axmağam") səsləndirir və daha on ilini yüngül dəlilik vəziyyətində, ana və bacısının nəzarəti altında keçirir. Atın başına nə gəldi – bu, artıq bizə məlum deyil.

Bu, onsuz da kifayət qədər qaranlıq hadisə - halbuki, onu gerçək kimi qəbul etmək də təbii olardı– tam aydınlığı ilə ruhumuzun miskin iflasını əks etdirir– bu da sizəhəyatın mənasının itməsi ilə bağlı ortaya çıxmış ümumfaciə nümunəsi.

Fəlsəfənin qaranlıq ulduzu, ümumbəşəri dəyərlərin əzəmətli əleyhdarı, qətiyyətlə xeyirxahlıq və mərhəməti rədd edən misilsiz nəhəng döyülmüş atın boynuna atılır? Bağışlanılmaz dərəcədə bayağı, ancaq qanunauyğun bir sual ortaya çıxır: niyə faytonçunun boynuna yox?

Bütün baş verənlərin sifilislə müşayiət olunan şiddətli tipik iflic tutmaları olduğunu iddia edən həkim Mebiusa dərin hörmətimə baxmayaraq, burada faciəvi aldanışın dərki mənə ildırım zərbəsi kimi görünür: uzun və əzablı mübarizədən sonra Niçşenin varlığı əvvəllər onun ayrılmaz hissəsi olan iblisanə düşüncə tərzindən imtina etməyə başladı. Tomas Mannın fikrincə, bu yanlış fikir "əclaflığın iztirab çəkən peyğəmbəri"nin həyat və əxlaqı bir-birinə qarşı qoymasından doğmuşdur. "Həqiqət ondadır ki, - Mann əlavə edir- əxlaq və həyat vahid tamı təşkil edirlər. Etika – həyatın dayağı, əxlaqlı insan isə həqiqi həyat vətəndaşıdır". Mannın mülahizələri öz alicənablığı ilə gözəldir: ancaq hətta biz onun məsləhətlərinə əməl edərək [bu ideal dənizdə] sərbəst üzmək üçün vaxt qənaət etsək də, bizim gəmimizi Turindəki Niçşedən başqa heç kim idarə edə bilməz. Bu, təkcəüzəcəyimiz suların başqa olduğunu göstərmir, həmçinin, əsəb sisteminin tam fərqli mexanizmini tələb edir: hətta burada gəmi kanatı qalınlığında polad əsəblərdən danışmaq yerinə düşər. Və bu kanat çox güman ki, bizə lazım olacaq, axı böyük təəccübümüzə rəğmən, biz Tomas Mannın sözlərinin gətirib çıxardığı limanda olacağıq, - ancaq bu həmin liman olsa da, biz özümüzü onun vəd etdiyi kimi hiss etməyəcəyik.

Niçşenin Turin faciəsi bizə göstərir: əxlaqi qanunlarla harmoniyada olan həyat azad seçim deyil, çünki hər hansı əks apriori seçmək mümkün deyil. Mən bu qanunlara zidd olaraq yaşaya bilərəm, ancaq məni onlarla qırılmaz surətdə bağlayan sirli və qarşısıalınmaz qüvvədən azad ola bilmərəm. Əgər mən nə olursa-olsun, əxlaqi qaydaların əksinə olaraq yaşasam, yəqin ki, öncədən duyulan miskin bir ictimai həyata daxil olacağam - və bu həyatda, Niçşenin sözləri ilə desək, "yaşamaq və ədalətsiz olmaq eyni şeydir" - ancaq məni mövcudluğumun mənası haqqında qüssələnməyə məcbur edən həlledilməz konflikti çözə bilməyəcəm. Çünki hal-hazırda ictimai həyatın bir hissəsi olaraq mən yenə də anlaşılmaz səbəbdən vahid tam adlandırdığım nəsnənin hissəsi olaraq qalmağa davam edəcəyəm. Və burada Kanta müraicət etmədən keçinmək olmaz- məhz O, yuxarıda adıçəkilən qaydalarla birgə onları pozma haqqını daxilimdə yerləşdirib.

Burada biz artıq limana girişi göstərən bakenlər arasında manevr edirik. Özü də kor-koranə: mayakda hamı yatır və bizim manevrlərimizi idarə etməyə kimsə yoxdur. Lövbəri,kainatın əxlaq qaydalarının ali mənasını əks etdirməsi haqda suallarımızı sürətlə udan alatoranlıqda atmaq lazım gəlir. Və biz belə bir xəbərsiz vəziyyətdə dayanır və hər tərəfdən bədbəxtlik sorağı ilə astaca bizə yaxınlaşan yeni yoldaşlar müşahidə edirik. Biz onlara hər hansı xəbərdaredici işarə vermək gücündə deyilik, biz onları yalnız əzab dolu baxışlarla yola salırıq. Bizə elə gəlir ki, belə də olmalıdır: uzaqdan bizə yaxınlaşanlar da günlərin bir günü buna oxşar hisslər keçirəcəklər – bu gün olmasa da, sabah... ya on, ya da otuz ildən sonra.

Ən geci – Turində.